№ 38 (1033) 20-26 sentyabr 2018-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Qardaşlığın, sədaqətin rəmzinə çevrilən zəfər bayramı



Sentyabrın 15-də Azərbaycan paytaxtının Azadlıq meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva paradda iştirak ediblər.

Bu günlər Azərbaycan Respublikasının paytaxtı Bakı öz tarixinin ən əlamətdar günlərindən birini yaşayır. Düz 100 il əvvəl - 1918-ci il sentyabrın 15-də Bakı tarixində ilk dəfə Azərbaycanın paytaxtı statusunu alaraq, Qafqaz İslam Ordusu və Azərbaycan milli ordu birləşmələrinin zəfərini bayram edirdi. Həmin gün indi yenidən təkrarlanır. Qardaşlığın, sədaqətin rəmzinə çevrilən bu zəfər bayramı ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının sarsılmaz, həm də əbədi olduğunu göstərir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etmişdir.

**Prezident İlham Əliyevin çıxışından:**

- Bu bayram günündə biz birlikdəyik. Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik. Yüz il bundan əvvəl Nuru paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan və Türkiyə vətəndaşlarını ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanın rəmzlərindən biri olan Azadlıq meydanından bütün türk bacı-qardaşlarımıza səmimi salamlarımı, sevgimi, məhəbbətimi çatdırıram.

Biz bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. İlk dəfə olaraq, müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz fəxr edirik ki, bu respublikanı yaradan Azərbaycan xalqı olmuşdur. Ancaq gənc müstəqil Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. Bakı şəhəri və bir neçə başqa şəhər işğal altında idi. Azərbaycan hökuməti Gəncə şəhərində yerləşmiş və orada fəaliyyət göstərmişdi. Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Əfsuslar olsun ki, iki ildən sonra Cümhuriyyət süqut etdi, Azərbaycan öz dövlət müstəqilliyini itirdi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdir və bizi ilk tanıyan Türkiyə olmuşdur. Bu da bir qardaşlıq nümunəsi idi.

Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun. Bizim birliyimiz bütün sahələrdə özünü büruzə verir. Təkcə bu il Prezident Rəcəb Tayyib Ərdoğanla mənim altı görüşüm olmuşdur - ikisi Azərbaycanda, ikisi Türkiyədə, ikisi isə beynəlxalq tədbirlər çərçivəsində. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir və hər görüşün böyük əhəmiyyəti var. Siyasi əlaqələr bu gün ən yüksək zirvədədir. Biz uğurlu iqtisadi əməkdaşlıq edirik. Ticarət dövriyyəsi artır. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Biz birgə enerji-nəqliyyat layihələrini uğurla icra edirik. O layihələr ki, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP layihəsinin bu il istifadəyə verilməsi tarixi layihələrdir. Birgə siyasi iradə ortaya qoyulmuşdur. Birgə maliyyə resursları təşkil edilmişdir və bu nəhəng transmilli layihələr uğurla icra edilmişdir. Biz Avrasiyanın nəqliyyat xəritəsini yenidən yaradırıq. Keçən ilin oktyabrında əziz qardaşımın iştirakı ilə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı mərasimi keçirilmişdir. Bu dəmir yolu yeni nəqliyyat damarıdır. Bu dəmir yolu ilə daşınan yüklərin həcmi getdikcə artır və artacaq. Bizim ölkələrimizin əhəmiyyəti, önəmi artır. Bütün bu böyük layihələri ancaq biz birlikdə edə bilərdik və etdik. Nəzərə alsaq ki, bu layihələr böyük maliyyə resursları, böyük siyasi iradə tələb edir, ancaq birgə səylərimizlə biz buna nail ola bilmişik. Bu gün Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bu layihələrin bəhrəsini görür. Bizim birliyimiz hər bir sahədə özünü göstərir, o cümlədən hərbi sahədə bizim iş birliyimiz, əməkdaşlığımız dərinləşir.





Türkiyə son illər ərzində çox böyük və şərəfli yol keçmişdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilibdir. Türkiyənin iştirakı olmadan dünyada heç bir məsələ həll oluna bilməz. Təsadüfi deyil ki, Türkiyə iqtisadiyyatına milyardlarla dollar xarici sərmayə qoyulur. Təkcə Azərbaycanın Türkiyəyə qoyduğu və qoyacağı sərmayə 20 milyard dollara bərabərdir. Türkiyənin dünya miqyasında çox güclü ordusu var. O dünya miqyasında ən güclü ordulardan biridir və həm Türkiyə, həm də bizim üçün bu, qürur mənbəyidir. Bütün bu uğurlar yalnız güclü liderin yorulmaz fəaliyyəti və xalqın Rəcəb Tayyib Ərdoğana olan dəstəyi nəticəsində mümkün olmuşdur.

Gələn ay Azərbaycan dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcək. Tarix üçün bu, çox qısa bir vaxtdır. Müstəqilliyimizin ilk iki ili çox ağır, faciəvi keçmişdir, torpaqlarımız işğal altına düşmüşdür, Azərbaycan böyük iqtisadi çətinliklərlə, iqtisadi-siyasi böhranla üzləşmişdir. Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Nəzərə alsaq ki, birinci iki ilimiz çox ağır keçmişdir, sonrakı dövrdə Azərbaycan böyük uğurlara imza atdı. Bu gün Azərbaycan bölgədə önəmli ölkəyə çevrilib, dünyadakı rolumuz artır, bizim beynəlxalq mövqelərimiz möhkəmlənir, dünya ictimaiyyəti bizim siyasətimizi dəstəkləyir. Bunun ən bariz nümunəsi odur ki, bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmişdir. Bu, dünyanın Azərbaycana olan dəstəyinin təzahürüdür. İqtisadi sahədə aparılan islahatlar Azərbaycana böyük imkanlar gətirdi, biz böyük nailiyyətlərə çata bildik. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır. Ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulmuşdur. Sosial məsələlərin həlli işində böyük uğurlar əldə edilmişdir. Bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Azərbaycan dost ölkələrlə, ilk növbədə, Türkiyə ilə birlikdə böyük layihələr icra etdi. Yəni, bütün bunlar tam əminliklə deməyə əsas verir ki, Azərbaycanın gələcəyi də parlaq olacaq.

Ölkəmiz ordu quruculuğu sahəsində də böyük uğurlar əldə edib. Bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Bizim hərbi potensialımız artır. Bizim güclü ordumuza böyük ehtiyacımız var. Çünki torpaqlarımız işğal altındadır.

Əziz dostlar, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir.

Yüz il bundan əvvəl Nuru paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlmiş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır. Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır.

Tarixi zəfərdən sonra qəhrəman əsgərlərimiz Bakı küçələrinə zəfər yürüşünə çıxmışlar. Minlərlə Bakı sakini onları alqışlayırdı, onları öpürdü, qucaqlayırdı, bağrına basırdı. Bu, bir birlik bayramı idi.

Əziz dostlar, bacılar və qardaşlar, mən bir daha sizin hamınızı tarixi gün münasibətilə - Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə təbrik etmək istəyirəm. Türkiyə və Azərbaycan xalqlarına daim inkişaf, tərəqqi arzulamaq istəyirəm. Bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir.

* * *

**Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etmişdir.**

O, demişdir:

- Biz bu gün burada yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, eyni zamanda, əziz şəhidlərimizin bizə əmanəti olan "Bir millət, iki dövlət" deyə rəmzləşdirdiyimiz qan qardaşlığımızı da dərk edirik.

Dəyərli qardaşlarım, burada bir həqiqəti dərhal vurğulamaq istəyirəm. 1918-ci il sentyabrın 15-də hazırda yaşadığımız ərazilərdə baş verən müharibə, əsla, adi bir hadisə deyil. Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik. Nuru paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişi azərbaycanlı qardaşlarımız arasında belə böyük həyəcana, belə böyük bir ümidə səbəb olub.

Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə burada həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək bugünkü müstəqilliyinin təməlini qoyub.

Bu gün Türkiyə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır. Müstəqilliyini bərpa etdikdən bəri Türkiyədə təhsil almış azərbaycanlıların sayı 125 mindən çoxdur. Hazırda 15 mindən çox azərbaycanlı tələbə Türkiyə universitetlərində təhsil alır. Əsgərlərimiz birgə təlimlər keçir, Əfqanıstan kimi dünyanın müxtəlif bölgələrində birlikdə fəaliyyət göstərirlər. Şübhəsiz ki, bu uğurlarda ümummilli lider Heydər Əliyevin nümayiş etdirdiyi dəyanətli liderliklə yanaşı, əziz qardaşım İlham Əliyevin səylərinin çox böyük bir payı vardır.

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP kimi birgə həyata keçirdiyimiz layihələr bütün regiona töhfəsini verir. Türkiyə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. İnşallah, Azərbaycan da çox yaxın zamanlarda Türkiyədə eyni mövqeyə malik olacaq.

Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır. Bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik.

Hər iki ölkənin gənclərinin birgə tariximizdən və bugünkü bayram tədbirindən nəticə çıxaracağına inanıram. Bu fikirlərlə çıxışıma yekun vuraraq, bu böyük qələbəni bizlərə ərməğan edən Azərbaycan Xalq Cümhuriyyətinin və müstəqil Azərbaycanın Ordusunun bütün qurucularını, Qafqaz İslam Ordusunun Azərbaycana göndərilməsini təmin edən Ənvər paşanı, bu qalib ordunun komandanı Nuru paşanı rəhmətlə yad edirik.

Qafqaz İslam Ordusunun bütün komandanlarına, hər bir əsgərinə və xüsusilə, bu torpaqlar uğrunda canından keçmiş əziz şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

* * *

Dövlət başçılarının çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi olmuşdur.

Parad başa çatdıqdan sonra dövlət başçıları Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi münasibətilə Türkiyədə hazırlanan xatirə markasını və ilk zərfi imzalamışlar.

# Əsas magistral yolların müasir səviyyəyə çatdırılması istiqamətində mühüm layihələr həyata keçirilir




Son illərdə respublikamızın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən Azərbaycanı digər ölkələrlə bağlayan əsas magistral yolların müasir səviyyəyə çatdırılması istiqamətində də mühüm layihələr həyata keçirilir.

Yeni inşa edilən yollardan biri də Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yoludur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışında iştirak edib.

Bildirildi ki, mövcud Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun ümumi uzunluğu 243 kilometr idisə, yeni avtomobil yolunun ümumi uzunluğu 204 kilometrdir.

Sifarişçisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi olan yolun podratçı şirkətləri Azərbaycanın "Evrascon-AzVirt" Birgə Müəssisəsi, Türkiyənin "Kolin İnşaat Sanayi Turizm və Ticarət", həmçinin "Özgün Yapı Sənaye və Ticarət", o cümlədən digər nüfuzlu xarici şirkətlərdir. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni avtomobil yolunun digər avtomobil yolları və maneələrlə kəsişməsində müxtəlif səviyyəli yol qovşaqlarının tikilməsi, birləşən və ayrılan yolların sayının azaldılması yolda təhlükəsizliyin təmin edilməsinə maksimum şərait yaradıb. Magistral yol Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edir və yolun tikintisi bu bölgədə turizmin, kənd təsərrüfatının inkişafına və beynəlxalq yükdaşımaların həcminin artmasına müsbət təsir göstərəcək.

# Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi olub



Sentyabrın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər. Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport vermişdir.

Bunun ardınca Vətən uğrunda həlak olan hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, dövlət himni səslənmiş, sonra gənc əsgərlər and içmişlər.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində keçirilən mərasimdə and içən gənc əsgərlər sırasında Azərbaycan Prezidentinin oğlu, burada hərbi xidmət keçən Heydər Əliyev də var. Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti təbrik etmişdir.

# Ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının çəkisi və rolu artmaqdadır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı rayonuna səfərə gəlib. O, Sənaye Məhəlləsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev Sənaye Məhəlləsində görülən işlər, həmçinin digər sənaye məhəllələri barədə dövlətimizin başçısına məlumat verdi. Dövlətimizin başçısı Masallı Sənaye Məhəlləsində istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə tanış oldu.

Sonra dövlətimizin başçısı Masallı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də "Masallı - Nemətləri" Məhdud Məsuliyyətli Cəmiyyətinin çəltik emalı müəssisəsinin açılışında iştirak edib.

Müəssisənin direktoru Ağamirzə Kərimov dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verdi.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Dövlətimizin başçısı çəltik emalı müəssisəsində yaradılan şəraitlə tanış oldu.

Müəssisənin nəzdində hazır məhsul anbarı və satış mərkəzi tikilib. Gələcəkdə çəltik saxlanılması üçün xüsusi bunkerlərin tikintisi nəzərdə tutulub. Emal edilən düyünün daxili bazarın tələbatına uyğun olaraq satışı üçün müxtəlif şirkətlərlə danışıqlar aparılıb. Bundan başqa, "Made in Azerbaijan" brendi kimi məhsulun xarici bazarlara çıxışı ilə əlaqədar sənədləşmə işləri davam etdirilir. Burada 15 nəfər daimi işlə təmin edilib. Gələcəkdə müəssisənin gücünün 2 dəfə artırılması və işçilərin sayının 40 nəfərə çatdırılması nəzərdə tutulub.

"Masallı - Nemətləri" MMC-nin çəltik təsərrüfatının ümumi sahəsi isə 60 hektardır. Təsərrüfatda yeni texnologiyaların tətbiqi ilə çəltik əkini sahələrinin hazırlanması bir neçə mərhələdə həyata keçiriləcək. Onların arasında şumun frez və disklə yumşaldılması, ləklərin içinin lazerli qreyderlə hamarlanması, toxumların germetik vannalarda yetişdirilməsi, 48 saat müddətində qapalı yerlərdə saxlanılması, kasetlərə aqreqatla səpilməsi daxildir. Bundan başqa, toxumların xüsusi hazırlanmış şitilxanalarda saxlanılması, şitillərin əkinə hazırlanması və kiçik texnikalar vasitəsilə əkilməsi də həyata keçiriləcək. Burada yeni texnika və metodlardan istifadə etməklə məhsuldarlıq orta hesabla bir hektara 40-50 sentner - əvvəlkindən 2 dəfə çox olacaq. Müəssisə şitiləkən traktorla və digər texnikalarla təchiz edilib.

Ərazidə 400 tonluq anbar da inşa olunub. Cari ildə rayon ərazisində ümumilikdə 301 hektar çəltik sahəsi əkilib. 25 hektar sahə isə Koreya Respublikasından gətirilmiş "Daydon" markalı texnikalar vasitəsilə ən müasir texnologiya əsasında əkilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı rayonunda əsaslı şəkildə yenidən qurulan Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, yolun yenidən qurulması Prezident İlham Əliyevin bu il iyulun 23-də imzaladığı Sərəncama əsasən aparılıb. 32 min nəfərin yaşadığı 22 yaşayış məntəqəsini birləşdirən Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun tikintisi üçün dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 7,5 milyon manat vəsait ayrılıb. Yolun ümumi uzunluğu 24,7 kilometrdir. Dördüncü texniki dərəcəyə aid ikizolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Yolun yenidən qurulması layihəsi çərçivəsində genişmiqyaslı torpaq işləri görülüb, siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilib. Dağlıq ərazidə yerləşən avtomobil yolunun tikintisi 22 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Biləsuvar rayonunun Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 20 mindən çox əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun uzunluğu 15,4 kilometrdir. Üçüncü və dördüncü texniki dərəcəyə uyğun tikilən yol iki hərəkət zolaqlıdır. Yolun inşası zamanı 26,1 min kubmetr torpaq işləri görülüb, 11,6 min kubmetr tikinti materialından və asfalt-beton örtüyündən istifadə edilib. Yol boyunca nişanlar və göstərici lövhələr quraşdırılıb.

Qeyd edək ki, dövlətimizin başçısının bu ilin yanvarında imzaladığı Sərəncama əsasən tikilən avtomobil yolu dörd yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Biləsuvar Gənclər Evinin açılışında da iştirak edib.

20-26 sentyabr 2018-ci il

# Dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığına şahidlik etdi

## ZİYAD SƏMƏDZADƏ: 15 SENTYABRDA İKİ AZƏRBAYCAN, İKİ BAKI, İKİ QARDAŞ DÖVLƏT YENİDƏN BİR-BİRİNƏ QOVUŞDU





***"15 sentyabr 2018-ci il tarixində bir xalq, bir dövlət olaraq çox tarixi və çox möhtəşəm anlar, hisslər, duyğular yaşadıq. Bu anları, bu hiss və duyğuları ifadə etməkdə sözlər belə acizdir, onların xoş təsirləri altındayıq".***

Bunu Etikxeber.az-a açıqlamasında millət vəkili, akademik Ziyad Səmədzadə Bakının 1918-ci ilin 15 sentyabr tarixində Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin 100-cü ildönümünə həsr olunmuş parada və həmin paradda Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakına, onların çıxşına münasibətini bildirərkən deyib.

Z.Səmədzadənin sözlərinə görə, həmin gün iki Azərbaycan – babalarımızın düz 100 il öncə qurub-yaratdıqları Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ilə 1991-ci ilin avqustunda ikinci dəfə azadlığına qovuşan və qurucusu, memarı ulu öndər Heydər Əliyev olan müstəqil Azərbaycan bir daha bir-birinə qovuşdu, bir-biri ilə qucaqlaşdı: "Dünən iki Bakı – 1918-ci ilin sentyabr ayının 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilən Bakımızla ikinci müstəqilliyini yaşayan Azərbaycanımızın günü-gündən gözəlləşən, modernləşən paytaxtı Bakımız bir-biri ilə yenidən qovuşdu, doğmalaşdı…

Bu gün iki qardaş, iki dost dövlət – **"iki dövlət, bir millət"** deyən Heydər Əliyevin müstəqil Azərbaycanı ilə "Azəbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyən Qazi Mustafa Kamal Atatürkün Türkiyəsi müdrik, uzaqgörən siyasət və dövlət adamları - Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın timsalında bir daha və yenidən bir-birinə qovuşdu, mərhəmləşdi…"

Hər iki dövlət başçısının iştirakı ilə Bakıda paytaxtımızın işğaldan azad edilməsinin 100-cü ildönümü ilə bağlı son dərəcə möhtəşəm, dünyaya səs salacaq parad keçirildi. Hər iki dövlət başçısı paradda çıxış edərək, bir daha Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının sarsılmaz olduğunu bütün dünyaya - həm dostlarımza, həm də düşmənlərimizə nümayiş etdirmiş oldu…

Dünya bir daha görmüş və duymuş oldu ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu daimidir, əbədidir, dönməzdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev özü də çıxışında bu məqama toxunaraq, bəyan etdi ki, **"bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir və dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun".**

Dövlət başçımız sonra **"Bu bayram günündə biz birlikdəyik. Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik. Yüz il bundan əvvəl Nuru paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan və Türkiyə vətəndaşlarını ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanın rəmzlərindən biri olan Azadlıq meydanından bütün türk bacı-qardaşlarımıza səmimi salamlarımı, sevgimi, məhəbbətimi çatdırıram", -** deyərək sözlərinə əlavə etdi.

Eyni zamanda, qardaş dövlətin başçısı çıxışında bu fikirlərin davamı kimi bəyan etdi ki, Türkiyə bu günə qədər Azərbaycana əlindən gələn yardımı göstərib və bundan sonra da göstərəcək.

"Qardaşlarımızın torpaqlarının 20 faizini işğal altında saxlayanların, 1 milyondan artıq insanımızın öz yurduna qayıtmasına imkan verməyənlərin bizdən sərhədləri açacağımızı gözləmələri boş-boşunadır, əbəsdir", - deyən Türkiyə lideri, həmçinin Qarabağ münaqişəsinin nizamlanmasının Ermənistanla münasibətlərin normallaşması üçün mütləq şərt olduğunu da vurğuladı…

"Bu, özü bir daha iki qardaş və dost arasında münasibətlərin hansı yüksək səviyyədə olduğuna aydınlıq gətirmiş, işıq salmış olur. **Ümumiyyətlə, hər iki dövlət başçısı son dərəcə səmimi, dərin məzmunlu, geniş əhatəli çıxış etdi və bu çıxışlar hələ uzun illər yaddaşlardan, hafizələrdən silinməyəcək.**

**Bütövlükdə, bunlar onu göstərir ki, hər iki dövlət həm sevinclərini, uğurlarını bərabər bölüşür, paylaşır, həm də dar gündə bir-birilərinə arxa-dayaq olur, kədərlərini, dərdlərini, problemlərini birlikdə yaşayır, bunlardan çıxmaq üçün həll yollarını da birlikdə axtarır və birlikdə tapır, dünyanın qarşısına daha güclü, daha yenilməz şəkildə çıxırlar", -** deyən Z.Səmədzadə bu baxımdan inanır və qəti əmindir ki, bu iki dövlətin birlik və bərabərliyi sayəsində 30 ildən bəri davam edən və dünyanın ədalətsizliyi üzündən hələ də həllini tapa bilməyən Qarabağ münaqişəsinin birdəfəlik çözümünə, ədalətli, istədiyimiz, arzuladığımız sülhə nail olmaq mümkünləşəcək: "Buna böyük ehtiyacımız var. Artıq Azərbaycan insanı 100 il öncə Bakımızın işğalda azad edildiyi kimi, Qarabağımızın da işğaldan qurtulmasını, bu bölgəyə əbədi sülh gəlməsini istəyir. İnanıram ki, gec-tez buna nail olunacaq, ədalət, zəfər, qələbə bizimlə olacaq və buna da qardaş Türkiyəylə birlikdə nail olacağıq.

Azərbaycan da, Türkiyə də həm regionda, həm də dünyada sülhün tərəfdarı, sülhün çarçısıdır. Hər iki dövlət hər bir məsələdə sülhə, qarşılıqlı etimad və etibara nail olunmasını istəyir və bunun üçün də bütün cəhdlərini ortaya qoyur. Odur ki, bu iki ölkənin birgə cəhdləri və səyləri sayəsində Qarabağ probleminin də ədalətli həllinə nail ola biləcəyik. Bir sözlə, Azərbaycanla Türkiyə hər zaman birdir, bir olub və bundan sonra da bir olacaq. Sözlərimi, fikirlərimi də böyük İstiqlal şairimiz, Türk dünyasının nəhəng söz ustadlarından olan Bəxtiyar Vahabzadənin bu misraları ilə yekunlaşdırmaq istərdim:

*Birdir bizim hər halımız -*
*Sevincimiz-məlalımız.*
*Bayraqlarda hilalımız*
*Azərbaycan-Türkiyə".*

<u>**Kamil Həmzəoğlu**</u>

# Azərbaycan və Türk əsgərləri Vəfa konserti ilə anıldı




Ankarada Türkiyənin "TRT Avaz" telekanalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Bakının bolşevik-daşnak işğalından azad edilməsinin 100 illiyinə həsr olunmuş konsert proqramı yayımlanıb. Proqram, həmçinin Azərbaycan İctimai Televiziyasında canlı yayımlanıb.

Konsert proqramı Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Azərbaycanın xalq artisti, dirijor Yalçın Adıgözəlovun rəhbərliyi ilə Türkiyənin Prezident Simfonik Orkestrinin və Azərbaycanın xalq artisti Elnarə Kərimovanın rəhbərlik etdiyi TRT Dövlət Xorunun, azərbaycanlı və türkiyəli solistlərin müşayiəti ilə qardaş ölkələrin məşhur bəstəkarlarının əsərləri səsləndirilib: Üzeyir Hacıbəyovun "Koroğlu" operasından uvertüra, "Çırpınırdı Qara Dəniz", Asəf Zeynallının "Muğam", Vasif Adıgözəlovun "Çanakkale içinde", "Ninni" və "Ana", Emin Sabitoğlunun "Şükriyyəm", Muammer Sunun "Sakarya Marşı" və "Karadeniz Marşı", Aygün Səmədzadənin "Türk Ordusuna" və "Bismillah" əsərləri. Konsertdə təqdim olunan əsərlərin şeirləri Əhməd Cavad, Mehmet Akif Ersoy və Məmməd Seyid Ordubadiyə məxsusdur. Azərbaycanın xalq artistləri Azər Zeynalov, Əlixan Səmədov və Azərin, istedadlı vokalçılar Orxan Cəlilov və Nigar Cəlilova, skripkaçı Ceyla Seyid, türkiyəli ifaçılar Nesrin Gönüldağ, Özgür Savaş Gençtürkün rəngarəng çıxışları konsertdə xüsusi sənət ab-havası yaradıb.

Konsertdə Azərbaycanın Xalq artisti, bəstəkar Aygün Səmədzadənin Cümhuriyyətin böyük şairi Əhməd Cavadın sözlərinə yazılmış iki əsəri - "Türk ordusuna" və "Bismillah" həm bir premyera kimi, həm də məxsusi bu gün üçün yazılan maraqlı kompozisiya və yüksək ifa tərzinə görə xüsusi rəğbətlə qarşılanıb.

**A.Səmədzadə bildirib:** "Belə bir əzəmətli tədbirdə iştirak etdiyimə görə məmnunam. Həm Cümhuriyyətin 100 illiyilə bağlı mövzulara tez-tez müraciət etdiyimə, dövrün ab-havasını içdən duyduğuma, tariximizin hər bir qürur səhifəsinə bir azərbaycanlı kimi sevgimə görə buradayam və bununla qürur duyuram. Əsərlərimin bu sanballı sıralamada yer aldığına görə mənimlə bərabər sevinənlərə, sənətimizlə fəxr edənlərə, bizi bu günə layiq bilənlərə minnətdaram. Bu tədbirdə böyük zəhmətlə bərabər çalışdığımız bütün kübar sənət adamlarına, başda maestro, xalq artisti Yalçın Adıgözəlov olmaqla, xalq artisti Elnarə Kərimovaya, Ayaz Qəmbərliyə, Əhməd Cavad ailəsinə, əsərlərimi səsləriylə gözəl təqdim edən Nigar və Orxan Cəlilovlara dərin təşəkkürümü bildirirəm. Layihələrdə bərabər çalışdığımız və əsərlərin ilkin versiyalarının təqdimatında iştirak edən Əvəz Muradova, əməkdar artistlər Elnur Əhmədov, Elçin Həşimov və Bəxtiyar Həsənə və bütün yaradıcı heyətə minnətdaram".

Xatırladaq ki, 15 sentyabr 1918-ci ildə tərkibində Azərbaycan korpusunun da olduğu Qafqaz İslam Ordusu Nuru Paşanın başçılığı ilə Bakıya daxil olaraq şəhəri bolşevik-daşnak işğalından azad edib. 8 min Osmanlı əsgəri və 7 minədək azərbaycanlı qüvvələr Bakının azad edilməsi üzrə hərbi əməliyyatda iştirak edib, onlardan təqribən iki mini şəhid olub. Bakı azad edildikdən sonra Azərbaycan Demokratik Respublikası Gəncədən Bakıya köçüb. Azərbaycanın müstəqilliyi təmin edilib və ermənilərlə bolşeviklərin Bakıda və ətraf rayonlarda hökmranlığına son qoyulub. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsi başlayıb. Uzun illər keçsə də, türklərin qardaş köməkliyi Azərbaycan xalqı tərəfindən heç vaxt unudulmur, həmişə xatırlanır və dərin minnətdarlıq hissi ilə xatırlanacaq.



# Xalq maarifi

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq maarifinin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirirdi. Çünki Çar hakimiyyəti Rusiyanın müstəmləkə əsarəti altında olan xalqlarının milli-siyasi mənlik şüurunun oyanmasına hər vasitə ilə mane olmuşdu. Çar Rusiyasında xalq məktəbləri dövlət orqanizmində "yaman şişi" xatırladırdı. Hökumət hər tərəfdən xalq təhsilinin inkişafı ilə razılaşmağa məcbur olurdu. Çünki dünyada elm və texnikanın sürətlə inkişafı Rusiyada da maarifin və xalq təhsilinin tamamilə yenidən qurulmasını tələb edirdi. Digər tərəfdən, çarizm xalqın oyanmaqda olan şüurunun qarşısını almaq üçün xalq maarifi işini məhdud çərçivədə saxlamaq istəyirdi. Çar Rusiyasında xalq maarifi və onun əsas daşıyıcısı olan müəllimlər hökumət tərəfindən hər cür həqarətə və təqiblərə məruz qalırdı.

Milli ucqarlarda, o cümlədən Şimali Azərbaycanda vəziyyət daha dözülməz idi. Burada zorla ruslaşdırma siyasəti yeridilir, təhsil, əsasən, rus dilində aparılır, milli dil və mədəniyyətin inkişafına hər cür əngəllər törədilirdi.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılan birinci hökumət kabinəsində Xalq Maarifi Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik öz fəaliyyətinə Azərbaycan xalq maarifinin vəziyyətinin və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xalq maarifinin inkişafına çox mühüm təkan verən ilk tədbirlərindən biri 1918-ci il 27 iyun tarixli qərar oldu. Həmin qərara əsasən, Azərbaycan-türk dili dövlət dili elan edildi.

Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə rus şöbələri açılır və burada Azərbaycan dili intensiv surətdə tədris olunurdu.



Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində, artıq 1919-cu ilin əvvələrində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsil məktəbi fəaliyyət göstərirdi.

Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi.

1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində, müəllim seminariyalarında oxuyanlar istisna olmaqla, 9611 şagird təhsil alırdı ki, onların da 3115-i azərbaycanlı, 6496 nəfəri isə başqa millətlərin nümayəndələri idi.

Bakıda universitet açılmasına böyük əhəmiyyət verən Cümhuriyyət hökuməti bu məsələni 1919-cu il 8 aprel tarixli iclasında müzakirə etdi. Qəbul olunan qərarda bütün imkanlardan istifadə edərək, 1919-20-ci tədris ilinin əvvəlində Bakıda universitet açılması məqsədilə Xalq Maarifi Nazirliyinə tapşırıldı ki, ümumi həcmi 10 milyon manatdan çox olmamaq şərtilə, smeta hazırlayıb hökumətə təqdim etsin. Hökumətin qərarına əsasən, Bakı Universiteti kommersiya məktəbinin binasında yerləşdirilməli idi.

1919-cu il senytabrın 1-də Azərbaycan Parlamenti, nəhayət, Bakıda dövlət universitetinin açılması haqqında qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də universitetin auditoriyalarında ilk mühazirələr başlandı.

1919-20-ci tədris ilində universitetdə 1094 tələbə təhsil alırdı ki, onların da 217 nəfəri azad dinləyici idi.

Azərbaycan Parlamenti 1919-cu il senytabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-20-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifinin inkişafında və mədəni quruculuq sahəsində qısa müddət ərzində həyata keçirdiyi mühüm tədbirlər sonralar respublikada xalq maarifinin təşkilində mühüm rol oynadı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# BALIMIZI AZƏRBAYCAN BALI KİMİ ÖLKƏ HÜDUDLARINDAN KƏNARDA DA TANIDIRIQ

Bu gün Azərbaycanda arıçılıq məhsullarının istehsalına dair statistikaya nəzər salsaq, görərik ki, 2005-ci ildə 0,6 min ton bal istehsal edilmişdisə, 2016-cı ildə bu rəqəm 2,7 min tona çatıb. Arı ailələrinin artım dinamikasına baxsaq, əgər 2005-ci ildə 105 min arı ailəsi vardısa, 2016-cı ildə onların sayı 260 min olub. Son illər arıçılığa artan maraq bu sahədə ixrac ənənəsinin yaranmasına təkan verib. Məsələn, 2015-ci ildə cəmi 3,62 ton bal ixrac olunmuşdusa, 2016-cı ildə bu göstərici 6,1 tona yüksəlib. Ötən il Azərbaycandan ixrac olunan 1 ton balın orta qiyməti 8 min ABŞ dolları təşkil edib ki, bu da dünya üzrə orta idxal qiymətindən 2,5 dəfə çoxdur.

Müsahibimiz uzun illər ölkəmizdə arıçılıqla məşğul olan "Ballı" bal və arı məhsulları şirkətinin direktoru Rəşad Rəşidovdur.

**- Rəşad müəllim, necə oldu ki, arıçılıqla məşğul olmağa başladınız?**

- Bu sahəyə gələnə kimi bir çox şirkətlərdə satış rəhbərliyində çalışmışam. Balı seçmə səbəbim isə bizim ailəmizin bu işə bağlılığı olub. Mənim babam da, atam da arıçı olublar. Biz 50 ildən çoxdur ki, bu işlə məşğul oluruq. Bala gələnə qədər də uzun müddət bu sahə ilə bağlı ağlımda müəyyən fikirlər, strategiyalar var idi. Zaman elə gətirdi ki, biz 3 il əvvəl bal satışında yeni keyfiyyət mərhələsinə keçdik. Amma bu o demək deyil ki, biz o zamana kimi bal sahəsində deyildik. Ən azı 50 ildən çoxdur ki, bu sahədə çalışırıq. Gözümü açandan arı təsərrüfatlarının içində böyümüşəm.

Bir şirkət kimi fəaliyyətə başlamamışdan öncə ilə indiki arasında fərq, təbii ki, mövcuddur. Həmin dövrdə məhsulun daha çox qablaşmamış formada satışını həyata keçirirdik. Amma zaman keçdikcə bazara baxdıqda hiss olunurdu ki, satdığımız məhsulun qablaşdırılmasının təkmilləşdirilməsinə ehtiyac duyulur. Ona görə bu sahəni araşdırmağa başladıq. Avropa, Amerika bazarında fəaliyyət göstərən bir çox şirkətlərin satış strategiyasını incələdik. Sonra özümüzə bir plan cızdıq ki, biz məhsullarımızı daha sanballı, yüksək səviyyədə qablaşdırılmış şəkildə təqdim etməliyik. Nəticə etibarı ilə də təqdimatımız kifayət qədər normal və uğurlu alındı. Brend olaraq artıq İqtisadiyyat Nazirliyinin xaricdə "Made in Azerbaijan" adı altında təşkil edilən qida sərgilərində iştirak etmişik. Balımızı Azərbaycan balı kimi ölkə sərhədlərində də tanıtmışıq.

**- Ümumən, insanları balın təbii olmasına necə inandırırsınız, çünki insanlarda bir şirkətin çoxlu bal istehsal etməsi və onun satışının çox olmasına inam, sanki, azdır?**

- Bal, həqiqətən, kifayət qədər spesifik məhsuldur. Çünki balı saxtalaşdırmaq çox rahat, yoxlamaq isə çox çətindir. Zaman-zaman bazarlarda sui-istifadə halları olduğu üçün insanlarda bala qarşı ehtiyatlı davranış formalaşıb. Biz insanların məhsulumuza olan güvənini qazanmaq üçün bir sıra işlər gördük. Məhsulun kompleks halda təqdim olunmasına, qablaşmasına, keyfiyyətinə, saxlanmasına, doğru yerdə təqdim olunmasına kifayət qədər güc sərf etdik. Bu gün "Ballı"nın bazarda keyfiyyətli bir bal markası kimi tanınmasında gördüyümüz işlərin rolu böyükdür. Bu gün bizim müştərilərimizin yüzdə doxsan faizi təkrar müştərilərdir. Yəni, bir dəfə məhsulumuzu alıb dadına baxan yenidən "Ballı"nı seçir. Həmçinin, biz satış nöqtələrimizdə müştərilərimizə balımızı laboratoriya şəraitində yoxlamağı təklif edirik. Bütün xərcləri müəssisəmiz ödəyir. Müştəri istənilən zaman məhsulun təbiiliyini laboratoriyada yoxlatdırıb əmin ola bilər. Bundan başqa, sosial şəbəkələr vasitəsilə müəyyən aksiyalar keçirərək, insanlar arasında təşviqedici məlumatlar paylaşaraq, markamız haqqında müsbət fikirlər yaradırıq.




Əslində, elə şüarımız da sizin sualınıza çox yaxındır. Yəni, məhsulumuz sexdən gəlmir, bişirilmir, bu, təbiətdən gəlir və həmin proses əslində kifayət qədər zaman aparır. Bir arıçı il ərzində ortalama iki dəfə bal süzə bilər. Həmin balı süzmək üçün o, bütün il ərzində təsərrüfata xidmət edir. Onun profilaktikasını aparır, doğru, vaxtlı-vaxtında bir zonadan başqa zonaya köçürülməsini edir. Əlbəttə, süzülmə ilə iş bitmir. Süzülmüş balın təbiiliyini qorumaq, tərkibindəki fermentlərin ölməməyi üçün saxlanılmasına, qablaşdırılmasına ciddi önəm vermək lazımdır. Ona görə də biz balın saxlanmasına, gigiyenasına, qablaşmasına və doğru şəkildə, heç bir kənar təsir olmadan müştəriyə çatdırılmasına çox diqqət edirik.

**- Arıçılıq böyük zəhmət, bununla belə gəlir gətirən sahə olduğu halda, kanardan elə mənzərə yaranır ki, bu sahəyə o qədər də kapital qoymaq lazım deyil?**

- İlk olaraq təcrübə olmalıdır. Daha sonra ətrafda sağlam, həqiqətən, bu biznesi irəli çəkəcək insanlar və doğru strategiya seçilməlidir. Sektor həm maddi, həm də strateji tərəfdən öyrənilməli, rəqiblər kifayət qədər araşdırılmalıdır. Rəqəmlər dəqiq hesablanmalıdır. Ən əsas da ilkin başlanğıc investisiyası olmalıdır. Başladıqdan sonra imkanlar açılır. Əgər iş uğurludursa, hər kəs – həm fərdlər, həm dövlət orqanları lazım olan dəstəyi göstərəcəklər. Bu gün startaplara dəstək olmaq üçün daha öncəki illərə nisbətən kifayət qədər məqamlar var. Gənclər bunlardan maliyyə baxımından faydalana bilərlər.

Kapitala gəldikdə isə, o, biznesin qurulduğu sahədən, qurmaq istədiyiniz işin həcmindən, məkanından asılıdır. Kifayət qədər dostlarımız var ki, simvolik investisiya ilə bu işləri başlayıblar. Həmin dövr üçün heç vaxt hesablamamışam ki, nə qədər məvacib lazımdır. Çünki biz bu işə başlayanda təsərrüfatlarımız, infrastrukturumuz var idi.

**- Qablaşdırma və daşınmanı necə həyata keçirirsiniz?**

-Ümumən, "Ballı" olaraq məhsulumuzla yanaşı, onun daha da yaxşı tanınıb seçilməsi üçün qablaşdırılmasına da xüsusi önəm veririk. Hal-hazırda "Ballı"nın istifadə etdiyi qablaşmalar dünya standartlarına uyğundur.

İstifadə etdiyimiz bütün bankalar Rusiya, İtaliya və Türkiyədən alınır.

Daşınmalara gəldikdə isə əsas istehsal və böyük anbarımız Xudatda yerləşir. Bakıda isə sadəcə müəyyən gün ərzində saxlanması üçün mini anbarımız var və satış nöqtələrimizdən aldığımız sifarişləri təyin olunmuş günlərdə gecikmə olmadan çatdırırıq.

**- Bəs, məhsullarınızın ixrac potensialı haqqında heç düşünmüsünüzmü?**

- Bəli. Bir çox ölkələrin məhsullarını daddıqda görürük ki, Azərbaycan balı tərkibinə görə çox zəngin baldır. Azərbaycanda 9 iqlim qurşağının olması imkan verir ki, kifayət qədər zəngin bal istehsal edilsin. Ona görə də düşünürəm ki, bizim balın təqdimatı düzgün edilərsə, kifayət qədər ixrac potensialı var. "Ballı" olaraq keçən il Qətərə məhsul ixrac etdik. Bu il də bir neçə ölkəyə və eləcə də Uzaq Şərqə və Körfəz ölkələrinə ixrac ehtimalımız artıq dəqiqdir. Növbəti illər üçün də ixrac potensialımızı genişləndirməyi düşünürük.

- Rəşad müəllim, maraqlı müsahibəyə görə sağ olun.

**Müsahibəni aldı:**
**Nailə Cabbarova**

## 20 sentyabr - Neftçilər günü

# "ƏSRİN MÜQAVİLƏSİ"NİN İQTİSADİ DİVİDENDLƏRİ



Gənc, müstəqil Azərbaycanın müasir, güclü, dayanıqlı iqtisadi inkişafa malik dövlətə çevrilməsi üçün ümummilli lider Heydər Əliyev neft strategiyasını müəyyən etdi ki, bu da gələcək iqtisadi-siyasi islahatların köklü transformasiyasının əsası olmalı idi. Yeni neft strategiyası Azərbaycanın neft yataqlarının işlənib hazırlanmasına xarici investorların cəlb edilməsini, xam neftin nəql edilməsi marşrutlarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə edilməsini və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi. 1994-cü il sentyabrın 20-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında XX əsrdə Azərbaycanın tarixində öz siyasi, iqtisadi, strateji əhəmiyyətinə görə ən vacib kontraktlardan biri – Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin sularının hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqına 30 illik müddətinə müqavilə imzalandı. Bu, neft strategiyasının əsası olan, ölkənin gələcəyi üçün yeni perspektivlər açan və sonrakı illərin praktikasında layiqli tarixi qiymətini əldə edən "Əsrin müqaviləsi"dir. 7,4 milyard dollar məbləğində qiymətləndirilən "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı və Yaponiya) təmsil edən 13 beynəlxalq şirkət (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, yəni SOKAR, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, İtochu, Exxon, Delta-Nimir) iştirak edirdi. Sonradan onlar işçi strukturlarını yaratdılar – Rəhbər Komitəsi, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası. Bu strukturlar Azərbaycan Respublikası prezidentinin 2 dekabr 1994-cü il tarixli Fərmanı imzalandıqdan sonra öz hüquqi səlahiyyətlərinin yerinə yetirilməsinə başladılar. 12 dekabr 1994-cü il tarixdə Milli Məclis "Əsrin müqaviləsi"-ni ratifikasiya etdi.

İlkin hesablamalara görə, "Azəri", "Çıraq" yataqlarında və "Günəşli" yatağının dərin hissəsində çıxarılacaq neft ehtiyatları 511 milyon ton təşkil edirdi, sonradan yeni qiymətləndirilmə əsasında neft ehtiyatlarının həcmi 1,072 milyard ton müəyyən edildi. "Əsrin müqaviləsi"ndən sonra 19 ölkəni və 41 neft şirkətini təmsil edən 26 müqavilə imzalandı.

Bu nəhəng yataqlar blokunun istismarı üç mərhələdə həyata keçirilməli idi. 1997-ci ilin 7 noyabr tarixində "Çıraq" platformasında ilk neft hasil olundu. Sonrakı mərhələlər uğurla həyata keçirildi. Nəzərdə tutulmuş müddətdə müqavilənin müddəalarının yerinə yetirilməsi və hasil olan neftin artan həcminin beynəlxalq bazarlara daşınması üçün yeni neft kəmərləri tikildi və istismara verildi:

- 1997-ci ilin sonunda neft Bakı-Novorossiyski boru kəməri vasitəsi ilə Qara dənizə ixrac olunmağa başladı;
- 1999-cu ildə Bakıdan Qara dənizin Supsa limanına neft kəməri tikildi və istismara verildi;
- 2002-ci ildə ümummilli lider Heydər Əliyevin qətiyyətli səyləri nəticəsində "Əsrin müqaviləsi"ndə nəzərdə tutulan Bakı-Tbilisi-Ceyhan (BTC) kəmərinin özülü qoyuldu. Çoxları bunu əfsanə və ya kağız üzərində boru kəməri hesab edirdi. Mühüm əhəmiyyət kəsb edən boru kəmərinin tikintisi Azərbaycanın enerji dəhlizinə çevrilməsinə yönəldilən mühüm addım oldu. 2005-ci il mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi keçirildi, 2006-ci ildə isə Azərbaycan neftinin Türkiyənin Ceyhan Linamına nəql edilməsinə başlandı.

Bütövlükdə, Azərbaycan neftinin Xəzər dənizindən dünya bazarlarına daşınması üçün Yerin ekvatorunun 10/1 hissəsinə qədər uzunluqda neft kəməri tikildi: Bakı-Novorossiysk (1330 kilometr), Bakı-Supsa (833 kilometr) və əsas ixrac neft kəməri olan Baki-Tbilisi-Ceyhan (1768 kilometr).

2017-ci ilə qədər Azərbaycanın dəniz neft resurslarının işlənməsinə 33 milyard dollar həcmində investisiya qoyulmuş, "Azəri-Çıraq-Günəşli" yataqlarından 3,2 milyard barrel neft hasil olunmuşdur. Bundan əlavə, "Azəri-Çıraq-Günəşli" blokunda 30 milyard kubmetr səmt qazı hasil edilmiş və Azərbaycan hökumətinə təhvil verilmişdir. 2017-ci il sentyabrın 15-dək Azərbaycan 125 milyard dollar mənfəət əldə etmişdir.

Karbohidrogenlərdən gələn gəlirlərə səmərəli rəhbərlik edilməsi, onların nəsillər arasında ədalətli bölgüsünün təmin olunması və bu vasitələrin prioritet sahələrin inkişafına yönəldilməsi məqsədilə Azəebaycan Respublikası prezidentinin 29 dekabr 1999-cu il tarixli 204 nömrəli fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradıldı. Qısa müddət ərzində dünyanın ən şəffaf fondlarından birinə çevrilən Dövlət Neft Fondu vəsaitlərin səmərəli və şəffaf idarə edilməsi sayəsində hazırkı və gələcək nəsillər üçün uzunmüddətli maliyyə gəlirliyini təmin etdi.

"Azəri-Çıraq-Günəşli" yataqlarının iştirakçısı olan xarici şirkətlər Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar məbləğində bonus keçirmişlər. 2017-ci ilin 14 sentyabr tarixində Bakıda "Azəri-Çıraq" yataqlarının və Xəzər dənizinin Azərbaycan sektorunda "Günəşli" yatağının dərin suları hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsünün birgə işlənməsi haqqında yeni saziş imzalandı. Bununla da "Azəri-Çıraq-Günəşli" nəhəng neft yataqları blokunun işlənməsində yeni dövr başlandı. Müqaviləni Azərbaycan hökumətinin SOCAR (pay 25%), BP (30,7), Chevron (9,57%), IMPEX (9,32%), Statoil (7,27%), ExxonMobil (6,79), TP (5,73%), ITOCHU (3,63) və ONGC Videsh Limited (2,31%) şirkətlərinin rəsmi nümayəndələri imzaladılar. 2050-ci ilə qədər uzadılan hasilatın pay bölgüsü haqqında tamamlanmış müqaviləyə uyğun olaraq, BP layihənin operatoru qismində fəaliyyətini davam etdirir. SOCAR-ın payı 11,6%-dən 25%-ə qədər artır, 75% mənfəət Azərbaycana qalır. Bu müqavilənin və tərəfdaşlar arasında "Azəri-Çıraq-Günəşli" müqavilə meydanı üçün əlavə hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin aparılması haqqında razılıq əldə olundu.

Həmçinin, yataqların işlənməsinə 40 milyard dollar vəsaitin qoyulması və 500 milyon ton neftin hasil edilməsi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, "Azəri-Çıraq-Günəşli" yataqlarında artıq hasil edilən və nəzərdə tutulan karbohidrogen ehtiyatları minimum 940 milyon ton təşkil edir.

"Əsrin yeni müqaviləsi" nin imzalanması Azərbaycanın neft strategiyasının yeni mərhələsinin əsasını qoydu. Bu, Azərbaycanın tarixində yeni eranın başlanması, ölkənin siyasi və iqtisadi təhlükəsizliyinin əlavə zəmanəti, yeni investisiyaların qoyuluşu, ÜDM-in artımı, yeni iş yerlərinin yaradılması və əhalinin sosial rifahının yaxşılaşması deməkdir.

### QLOBAL NEFT-QAZ LAYİHƏLƏRİ "ƏSRİN MÜQAVİLƏSİ"NİN REALLAŞMASI KİMİ

Dünyanın ən zəngin qaz yataqlarından biri olan "Şahdəniz" keçən əsrin ortalarında Azərbaycan geoloqları tərəfindən kəşf edilmiş, lakin müvafiq texnologiyaların olmaması üzündən onun istismarı dayandırılmış, yatağın potensial imkanları müəyyən edilməmişdir. 1996-cı ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq neft şirkətləri ilə birgə yaratdığı konsorsium yataqda zəngin qaz yataqlarını aşkar etdi, nəticələr bütün gözləmələri ötdü. Qiymətləndirməyə görə, yataqdakı qaz ehtiyatlarının həcmi 1,2 trilyon kubmetr təşkil edir. O, dünyada az sayda nəhəng yataqlardan biri sayılır.

Sonrakı illərdə "Ümid" və "Abşeron" yataqlarının kəşfi təsdiq etdi ki, Azərbaycan böyük miqdarda qaz ehtiyatlarına malikdir. Bununla da Azərbaycanın təbii resurslar tarixində yeni səhifə açıldı. 2013-cü ilin 13 dekabr tarixində Bakıda konsorsium üzvləri "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi haqqında növbəti tarixi qərar qəbul etdilər. İmzalanma mərasimi müxtəlif ölkələrin rəsmi nümayəndələrinin iştirakı ilə Heydər Əliyev mərkəzində keçirildi. Müqavilə əsasında layihəyə 28 milyard dollar həcmində investisiyanın cəlb edilməsi planlaşdırılır.

Azərbaycanın iradəsi və liderliyi sayəsində Cənub qaz dəhlizi ideyası həyata keçməyə başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2013-cü il tarixli Sərəncami ilə "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində Azərbaycanın maraqlarının qorunması və layihə iştirakçılarına dövlət dəstəyinin təmin edilməsi məqsədilə Dövlət Komissiyası yaradıldı.

2014-cü ilin sentyabr ayının 24-də "Əsrin müqaviləsi"nin iyirminci ildönümündə Sanqalçalda dövlət və hökumət başçılarının Cənub-Şərqi Avropa ölkələrinin nazirlərinin və beynəlxalq şirkətlərin rəhbərlərinin iştirakı ilə "Cənub qaz dəhlizi" layihəsinin özülünün qoyulması mərasiminin açılışı oldu.

Azərbaycan artıq qonşu ölkələrə hasil edilən qazı ixrac edir, Avropa bazarına qaz ixracının başlanması üçün yeni boru kəmərləri tikir:

- 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (Cənubi Qafqaz qaz kəməri) istismara verildi, "Şahdəniz" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində hasil edilən qaz Gürcüstana, Türkiyəyə və Yunanıstana ixrac edilməyə başlandı;
- 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının baş naziri Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda Azərbaycanla Türkiyə arasında TANAP (Trans-Anadolu qaz kəməri) layihəsi imzalandı;
- 2013-cü ildə "Şahdəniz" konsorsimu TANAP qaz kəməri ilə nəql olunacaq Azərbaycan qazının Avropaya daşınması üçün İtaliyanın cənubu ilə Türkiyə sərhədini birləşdirən TAP (Trans-Adriatic-Pibeline) layihəsini seçdi, hazırda boru kəmərinin çəkilişi üzrə işlər davam edir. Bu layihələr "Şahdəniz" yatağını İtaliyanın cənubu ilə birləşdirərək, "Cənub qaz layihəsi"-ni reallaşdırmağa imkan verir.

2015-ci ildən başlayaraq hər il Bakıda keçirilən Cənub qaz dəhlizi məslәhət şurası çərçivəsində nazirlərin görüşləri təşkil olunur. Cənub qaz dəhlizinin vacib tərkib hissəsi olan TANAP-ın rəsmi açılış mərasimi 2018-ci ilin mayın 29-da oldu və bu meqa layihə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzedilməz infrastruktur layihəsidir.

2018-ci il 12 iyun tarixində Türkiyənin Əskişəhərində TANAP-ın istismara verilməsi ilə əlaqədar təntənəli mərasim oldu. 2020-ci ilə qədər TAP layihəsinin başa çatdırılması planlaşdırılır. Beləliklə, Azərbaycanın zəngin qaz resursları qısa və təhlükəsiz yolla Türkiyə və Avropa bazarlarına şaxələndirilmiş şəkildə daşınacaqdır.

Enerji sektorunda Azərbaycanın məqsədyönlü fəaliyyəti onu regionun enerji mərkəzinə çevirir.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# "AtaSığorta" ASC "Petrollu Kasko" məhsulunu təqdim edib



Azərbaycanın sığorta sektorunda daim müştərilərin məmnuniyyətini düşünən "AtaSığorta" ASC bu dəfə "Petrollu Kasko" adlı yeni könüllü sığorta məhsulunu təqdim edib. "Petrollu Kasko" məhsulu öz sərfəli şərtləri ilə seçilir. Belə ki, "Petrollu Kasko" məhsulunu əldə edən müştəriyə sığorta olunan avtomobilin dəyərinin 1%-i həcmində yanacaq hədiyyə edilir. Məhsul bazar dəyəri 10 min manatdan 80 min manata qədər avtomobillər üzrə fiziki şəxslərə təklif olunur. "Petrollu Kasko" məhsulu əldə edərkən avtomobil tam dəyərində sığorta olunur. Məhsulun sığorta tarifi bazar şərtlərinə uyğun olaraq çox sərfəlidir. Məsələn, dəyəri 30 min manat olan avtomobil üzrə 300 manatdəyərində yanacaq müştəriyə hədiyyə olunur. Hədiyyə olunan yanacağın 50%-i sığorta müqaviləsi rəsmiləşdirilən zaman, 50%-i isə 3 aydan sonra müştəriyə təqdim olunur.

Məhsulun yaranmasında əsas məqsəd fiziki şəxslərə avtomobillərini sığorta etməklə yanaşı, hədiyyə almaq imkanı verməkdir. Məhsulun şərtləri ilə bağlı ətraflı məlumat almaq istəyənlər (+99 412) 510 40 58 nömrəsi ilə əlaqə saxlaya bilərlər. Həmçinin, məhsulu www.atasığorta.az internet səhifəsindən online sifariş etmək mümkündür.

"AtaHolding" şirkətlər qrupuna daxil olan "AtaSığorta" ASC 2004-cü ildən sığorta sektorunda fəaliyyət göstərir. Şirkət 30 milyon manata yaxın aktivlərə malik olmaqla 30 sığorta növü - 26 könüllü və 4 icbari sığorta növü üzrə müştərilərə xidmətlər göstərir. "AtaSığorta" həmçinin təkrarsığorta fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malikdir. İcbari Sığorta Bürosunun təsisçisi və iştirakçısıdır. "AtaSığorta" ASC-nin xidmət şəbəkəsinə 90-dan artıq filial, nümayəndəlik və ofislər daxildir.

# "AzSığorta" dərmanları birbaşa ünvanınıza çatdıracaq




Hər zaman müştərilərinin qayğısına qalan "AzSığorta" bu ənənəyə sadiq olduğunu bir daha sübut etdi.

Şirkətin tibbi sığorta xidmətindən yararlanan müştərilər artıq dərman almaq üçün əczaxana axtarmayacaqlar, çünki lazım olan preparatlar müştərinin ünvanına çatdırılacaq.

Bunun üçün müştərinin sadəcə (+994050) 444-90-90 nömrəsinə lazım olan dərman preparatlarının siyahısını göndərməsi yetərlidir. Dərmanların çatdırılması üçün əlavə ödəniş tələb edilmir.

"AzSığorta" ölkənin ən stabil sığorta şirkətlərindən biridir. Fitch beynəlxalq reytinq agentliyi şirkətin etibarlığını təsdiq edərək, ona "B" reytinqini təyin etmişdir.

# Qədim İpək Yolu Azərbaycan üçün daimi kapitaldır, daimi siyasi nüfuzdur, iqtisadi müstəqilliyin güclü amilidir

"Tarixi İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılması üçün güclü təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir. Böyük İpək Yolu keçmişdə başlasa da, gələcəyə doğru gedən yoldur. Mən inanıram ki, əgər biz əməkdaşlıq edə-edə, bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək, bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır".

***(1998-ci il sentyabr, konfransda Heydər Əliyevin çıxışından bir hissə)***

**Düz 20 il bundan əvvəl - 1998-ci ilin sentyabr ayında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq qədim İpək yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi. Konfransda ulu öndər Heydər Əliyev çıxış etdi, Bakı bəyannaməsi qəbul olundu və bu gün həmin siyasət davam etdirilir.**

**Sentyabrın 6-da AzTV kanalında efirə yayımlanan "Günün nəbzi" verilişində Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini İqbal Hüseynov və TRACECA-nın Azərbaycan üzrə milli katibi Akif Mustafayev ilə məhz bu məsələlər barəsində fikir mübadiləsi aparılmışdır. Bunu oxuculara təqdim edirik:**

**Aparıcı (Rövşən Rafiqoğlu):** Ziyad müəllim, Bakıda 9 ölkə - Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan respublikalarının dövlət başçıları, beynəlxalq təşkilatlar, dövlət nümayəndə heyətlərinin iştirak etdiyi həmin tədbirdə, qeyd etdiyimiz kimi, TRACECA proqramı çərçivəsində çoxtərəfli saziş imzalandı, Bakı bəyannaməsi qəbul edildi. Belə bir sualla müraciət etmək istərdim ki, Bakıda keçirilən bu önəmli beynəlxalq konfrans hazırda bütün dünyanın diqqət mərkəzində olan, reallaşması istiqamətində çoxaspektli addımlar atılan qədim İpək yolunun bərpası baxımından nə kimi önəm kəsb etdi?

***ZİYAD SƏMƏDZADƏ:*** Əvvəla, mən AzTV-yə dərin təşəkkürümü bildirirəm ki, bu gün burada Azərbaycan xalqının inkişafı, Azərbaycan dövlətinin iqtisadi, siyasi müstəqilliyinin qorunması, iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün çox vacib bir məsələ müzakirə edilir. Sözün əsl mənasında, 1998-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə baş tutan bu konfrans tarixi bir konfransdır. İllər keçəcək, onilliklər keçəcək, heç şübhəsiz ki, əsrlər keçəcək, qədim İpək yolu fəaliyyət göstərəcək, inkişafa, tərəqqiyə xidmət edəcəkdir. Mən hesab edirəm ki, belə bir konfransın Azərbaycanda keçirilməsi ona görə baş tutdu ki, Heydər Əliyev çox müdrik bir siyasət yeritdi, əsl liderlik nümayiş etdirdi. Dünya tarixi göstərir ki, bu və ya digər dövlətin yollara malik olması onun iqtisadi, siyasi müstəqilliyini təmin edən əsas şərtlərdən biridir. Tarix boyu da əksər müharibələr yollara sahib olmağa görə başlayıb, çünki əlverişli nöqtədə yerləşən yollar həmişə mübahisə, mübarizə obyekti olub. Qədim İpək yolu uzun illər, əsrlər boyu fəaliyyət göstərib. Lakin bir müddətdən sonra o yaddan çıxdı. Müstəqilliyini bərpa edən dövlətlər, o cümlədən 8 dövlət 1993-cü ildə Brüssel bəyannaməsini imzaladılar. Bu bəyannaməni imzalamaqda məqsəd ondan ibarət idi ki, Avropa Birliyi yeni müstəqil dövlətlərə şans versin ki, onlar iqtisadi müstəqilliklərini qorumaq üçün daha əlverişli yollara malik olsunlar.

Heydər Əliyev bilirdi ki, qədim İpək yolunun bərpası Azərbaycan üçün daimi kapitaldır, Azərbaycanın iqtisadi, siyasi müstəqilliyini qorumaq üçün böyük bir vasitədir. Ona görə dünyanın ən aparıcı beynəlxalq təşkilatlarını Azərbaycana dəvət etdi ki, bu məsələdə bir çox dövlətlər ümumi razılığa gəlsinlər.

**Aparıcı**: Etiraf edək ki, hər ölkə belə bir tədbirə ev sahibliyi etmək istərdi.

***ZİYAD SƏMƏDZADƏ***: Ümumiyyətlə, konfransın işinə mane olan qüvvələr də var idi. Amma Heydər Əliyev tədbirin Bakıda baş tutmasına nail oldu. Bununla əlaqədar beynəlxalq təşkilatlar, dünyanın bir çox dövlətlərinin başçıları Bakıya gəldilər. Bakı Sammitindən 20 il keçib. Görün, Azərbaycan nə qədər inkişaf edib. Tam məsuliyyətlə demək lazımdır ki, bu inkişafda İpək yolunun bərpası əhəmiyyətli rol oynayır.

Bir məqamı da qeyd edim. Heydər Əliyev konfransın yekunlarına həsr olunmuş müşavirədə demişdir ki, tarix boyu Azərbaycanda çox tədbirlər keçirilib - Sovet dövründə də, ondan qabaq da. Lakin Azərbaycan xalqının tarixində yadda qalan ən böyük hadisə qədim İpək yolu konfransıdır. Çünki bura gələn dövlət başçıları, dünyanın aparıcı təşkilatları gördülər ki, Azərbaycan müstəqil bir dövlət qurub və burada azad bazar münasibətlərinə geniş meydan açılıb. Azərbaycan dövləti, Azərbaycan xalqı sülhsevər xalqdır. Yollar insanları, xalqları birləşdirir. Əgər yollar varsa, bu yollardan xalqlar fayda götürürlərsə, bu o deməkdir ki, mədəniyyət də, iqtisadiyyat da, ticarət də inkişaf edir.

Mən Bakı Sammitinin materiallarını, hər bir çıxışı diqqətlə təhlil etmişəm, demək olar ki, bütün çıxışlarda deyilir ki, qədim İpək yolunun bərpası, eyni zamanda, sülhün qorunması deməkdir.

***Aparıcı***: Yəni, ən əsası bu qovşaq Azərbaycandır.

***ZİYAD SƏMƏDZADƏ:*** Bəli, Azərbaycandır. Orada Rumıniyanın Baş naziri, Bolqarıstanın prezidenti, Almaniyanın nümayəndəsi, Fransanın nümayəndəsi çıxışlarında qeyd edirdilər ki, biz Heydər Əliyevə bu konfransın təşkilinə görə təşəkkür edirik. Qeyd edirlər ki, Xəzər – bu, qovşaqdır, həmişə fəaliyyət göstərəcək, davam edəcək yoldur.

***Aparıcı***: 90-cı illərdə Azərbaycan üçün mühüm önəm kəsb edən hadisələrdən biri beynəlxalq konfransın keçirilməsi deyildi. Həmin dövrdə TRACECA-nın Azərbaycan nümayəndəliyi açıldı, ümummilli lider Heydər Əliyev həmin açılış mərasimində iştirak etdi, nitq söylədi, ümumiyyətlə, TRACECA-nın beynəlxalq təşkilat kimi Azərbaycanla əməkdaşlığının önəminə toxundu və siz də faktiki olaraq həmin dövrlərdən etibarən, Akif müəllim, TRACECA-nın Azərbaycan üzrə milli təmsilçisisiniz. Ona görə də 90-cı illərdə qədim İpək yolunun bərpası istiqamətində Azərbaycanın atdığı addımlara sizin də münasibətinizi öyrənmək bizim üçün maraqlı olardı.

***AKİF MUSTAFAYEV:*** Ziyad müəllim qeyd etdi, ancaq mən onu təkrarlamaq şərti ilə qeyd etmək istərdim ki, doğrudan da, 7-8-i sentyabr 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü, səyi, zəhməti və nüfuzu nəticəsində baş tutan sammit qızıl hərflərlə tarixə yazılmalıdır. Bu unudulası bir şey deyil. Həmin sammitin nəticəsində həm Bakı deklarasiyası qəbul olundu, həm də çoxtərəfli saziş imzalandı. Həmin sazişi imzalayan dövlət başçıları sırasında 9 dövlət başçısı, 2 hökumət başçısı və Qazaxıstanla təmsil olunan nəqliyyat naziri var idi. Ümummilli liderimiz əsas çoxtərəfli sazişi qeyd-şərtlə imzalayıb. Qeyd-şərtdə açıq-aydın deyilir ki, nə qədər Azərbaycanla Ermənistan arasında konflikt davam edəcək və Azərbaycan torpaqları işğal altında olacaq Ermənistan üçün heç bir yol açılmayacaq, bağlı qalacaq və o gündən bu günədək bu, ümummilli liderimizin qoyduğu qayda və dediyi sözlər hamısı qüvvədədir və Ermənistan bütün regional layihələrdən kənarda qalmışdır. Bu, davam da edəcəkdir.

2001-ci ildə, nəhayət, həmin çoxtərəfli sazişin şərtlərinə uyğun olaraq, Bakıda TRACECA mənzil qərargahının ofisi açıldı və bu açılışda da Avropa Komissiyasının rəhbərliyi, Avropa Komissiyasından və Avropadan bir sıra yüksək vəzifəli şəxslər iştirak etdilər və o gündən bu günə Azərbaycanda 13 dövləti özündə birləşdirən, 13 dövlətin koordinasiyasını aparan mənzil-qərargah fəaliyyət göstərir.




Bundan başqa, həmin hadisə, doğrudan da, bütün dünyanın diqqətini Azərbaycana cəlb etdi və bunun nəticəsində həmin dövrdən başlayaraq Azərbaycana böyük miqdarda investisiyalar yatırılmağa başlandı, Azərbaycanı daha yaxından tanıdılar və Avropa Komissiyası başda olmaqla, TRACECA dövlətləri üçün, birinci növbədə Azərbaycan üçün bir çox mühüm investisiya və texniki layihələr icra olundu. Bunlardan bir neçəsini deyim. Misal üçün, Gürcüstanla Azərbaycan arasında olan yeni körpü - Qırmızı körpü. Köhnə körpü dağılmaq üzrə idi. Orada hərəkət etmək çox təhlükəli idi və o körpünün inşası tam olaraq TRACECA layihəsi çərçivəsində oldu və ona da xeyli - 2 milyon yarım avroya yaxın xərclər çəkildi.

Bakı Dəniz Limanında konteyner terminalı tikildi, dəniz avadanlığı, naviqasiya avadanlığı alındı və bunların sayı-hesabı yoxdur. Həmin tarixi hadisə, doğrudan da, sıçrayışa səbəb oldu. Bəs, bu daşımalarda nə baş verdi? Əgər 98-ci ilə qədər bu daşımaların həcmi bir neçə yüz min tona çatırdısa da, bu çoxtərəfli saziş imzalanandan sonra daşımaların həcmi ildən-ilə artmağa başladı. Bu da, sözsüz, investisiya deməkdir. Əgər Dövlət Statistika Komitəsinin rəsmi hesabatlarına baxsaq, görərik ki, ildə 50 milyon tona yaxın yük daşınır. Amma bu, o demək deyil ki, 50 milyon ton yük dəhlizin o başından bu başına daşınır. Burada bütün Azərbaycanın ərazisinə 50 milyon ton yük daşınır, bunlardan da 12 milyon tona yaxını tranzit yüklərdir. Əgər Çinin də "Bir kəmər, bir yol" strategiyasını və Azərbaycanın da bura qoşulmasını nəzərə alsaq, sözsüz, potensial çox böyükdür, bu daşımaları, valyuta gəlirini daha çox artırmaq mümkündür və düşünürəm ki, bu, baş verəcək.

***Aparıcı***: Akif müəllim, biz müasir dövrdə Azərbaycanın logistik imkanlarına toxunacağıq. Ziyad müəllim, mən istərdim ki, tarixə bir ümumiləşdirmə ilə yekun vuraq. Faktiki olaraq, 1998-ci ildə belə konfrans keçirməklə Azərbaycan bir daha özünü beynəlxalq miqyasda tanıtdı, imkanlarını ortaya qoydu.

İkincisi, nəqliyyat, logistik imkanlar üçün yeni üfüqlər açıldı, yeni potensial ortaya gəldi.

Üçüncüsü, həm Azərbaycana investisiyaların qoyulması, həm də Azərbaycanın maddi baxımdan daha da güclənməsi üçün geniş imkanlar açıldı.

***ZİYAD SƏMƏDZADƏ:*** Heç şübhəsiz ki, konfransın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o, bütün dünyaya sübut etdi ki, Azərbaycan sivil, azad bazar münasibətlərinə əsaslanan iqtisadiyyat qurur, Azərbaycan iqtisadi qanunvericilik bazasını yaxşılaşdırır, xarici investorlar burada özlərini rahat hiss edirlər.

Azərbaycan iqtisadiyyatına son 10-15 il ərzində 200 milyard dollardan çox vəsait qoyulmuşdur. Bu investisiyaların strukturu da ildən-ilə təkmilləşir. Qeyri-neft sektorunun xüsusi çəkisi artmağa meyil edir. Xatırlayırsınız, 90-cı illərin əvvəllərində cəmi bir dənə yol var idi. O yoldan da bizə həmişə təzyiq vasitəsi kimi istifadə edən qüvvələr var idi. Amma bu gün o, yoxdur. Almaniya nümayə heyətinin başçısı deyir ki, "Qoy, bu konfrans sizin ölkənin və Xəzər regionunun inkişafında mühüm mərhələ olsun. Qoy, bunun nəticəsində yeni körpülər yaransın və onlar regionun xalqlarını Avropa Birliyi ilə iqtisadi və mənəvi cəhətdən daha sıx bağlasın".

Biz bu gün Avropa İttifaqı ilə, Şərq ölkələri ilə sıx əməkdaşlıq edirik. Azərbaycan Xəzərin təbii sərvətlərini dünya bazarına çıxarmaq üçün böyük işlər görür. Yəni, bu konfransın tarixi, siyasi, mənəvi əhəmiyyəti çox böyükdür. Çünki Azərbaycan bütün dünyaya bəyan etdi ki, hələ o vaxtlar iqtisadiyyatımız o qədər də güclü deyildi, 90-cı illərin ikinci yarısında iqtisadiyyatda sabitləşmə meyilləri güclənirdi, bizim valyuta ehtiyatlarımız yox idi, dünyaya çıxışımız o qədər də güclü deyildi, amma Heydər Əliyevin şücaəti, uzaqgörənliyi, əsl liderlik məharəti dünyaya tanıtdırdı ki, Azərbaycanla əməkdaşlıq etmək olar. Konfransda bir çox maraqlı məqamlar da var idi. Yaponiyanın Baş naziri Heydər Əliyevdən xahiş edir ki, onu qəbul etsin. Heydər Əliyev onu qəbul edəndə söhbət əsnasında o deyir ki, sizin Yaponiyaya gəlişiniz Azərbaycanı bizə tanıtdırdı. Yaponiya Azərbaycanı o qədər də tanımırdı. Azərbaycanı tanımayan Yaponiya o vaxtlar artıq Azərbaycana 7 milyard dollar investisiya qoyub. Nəyin hesabına? Azərbaycanda gördüklərinin, Azərbaycanın apardığı siyasətin, Azərbaycanda yaradılan işgüzar mühitin hesabına.

***Aparıcı***: Çox mühüm önəm kəsb edən məsələlərdən biri ondan ibarətdir ki, bu siyasət bu gün də davam etdirilir və real nəticələr də var. Faktiki olaraq, Bakı-Tbilisi-Qars Böyük İpək yolunun yerləşdiyi ərazidə yerləşir, həmin xətt üzrə gedir və bu gün Azərbaycan yalnız Bakı-Tbilisi-Qars dəmir yolu ilə kifayətlənmir. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin, Cənub-Qərb nəqliyyat dəhlizinin reallaşması istiqamətində kompleks addımlar atılır. Bu addımların real nəticələrinə istərdik ki, toxunaq. İqbal müəllim, bu layihələrin reallaşması, icrası istiqamətində real vəziyyət necədir? Sizin fikirlərinizi eşidək.

***İQBAL HÜSEYNOV:*** Əvvəla, qeyd edim ki, 98-ci ildə ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə Bakıda reallaşdırılmış o konfransın tək bizim üçün yox, region dövlətləri üçün də çox böyük əhəmiyyəti var idi. Həmin illərdə sovetlər dövləti yeni dağılmışdı, nəqliyyat əlaqələri kəsilmişdi, nəqliyyatda bir xaos var idi. Bu, Xəzərin Şərq sahilində və Asiyada yerləşən bütün dövlətlərə yüklərinə diversifikasiya şəraiti yaratmağa imkan verirdi. Bayaq Akif müəllim də qeyd etdi ki, bu, ilk normativ sənəd idi ki, daşımanı tənzimləyirdi.

Bu gün Bakı-Tbilisi-Qars bağlantısı da cənab prezidentin şəxsi təşəbbüsü ilə yaranmış həmin proyektin bir davamıdır, marşrutun yeni bir şaxəsidir. Bu marşrut artıq regional yox, daha böyük əhəmiyyət kəsb edən marşruta çevrilibdir. Qonşu dövlətlərdən elə bir dövlət qalmayıb ki, bu marşruta maraq göstərməsin və biz onlarla mütəmadi işlər aparmayaq.

***Aparıcı***: İqbal müəllim, Azərbaycan və təbii ki, region ölkələrin birgə iştirakı ilə Bakı-Tbilisi-Qars dəmir yolu işə düşdü. Artıq müəyyən zaman keçib. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu region ölkələrinə, Azərbaycana nə kimi fayda gətirir, ümumiyyətlə, istifadə baxımından bu nəqliyyat arteriyası nə kimi mühüm önəm kəsb edir? İstərdik ki, konkret rəqəmləri sizdən eşidək.

***İQBAL HÜSEYNOV:*** Biz bu günə qədər 3 min 20 funt ekvivalentində, yəni konteyner daşımaçılığı həyata keçirmişik. Bakı-Tbilisi-Qars xətti ilə hər iki istiqamətdə, test olaraq 820 ton Rusiya məhsulu olan buğdanı Türkiyəyə çatdırmışıq. Hazırda vaqonla daşınan yüklərin artırılması istiqamətində işlər gedir. Biz artıq marşrutda iştirak edən rus dövləti ilə bir yerdə və Qazaxıstanla vaqon daşımalarını oktyabr ayından fəallaşdırmağa başlayacağıq. Konteynerləri də, təbii ki, çeşidlərini, marşrutlarını, təyinat və

"Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi artacaq, qarşılıqlı sərmayə qoyuluşu da artacaq. Bütün bu yoldan istifadə edən ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə xidmət göstərəcək, təhlükəsizliyə xidmət göstərəcək".

***(Bakı-Tbilisi-Qars Dəmir yolunun açılışında Prezident İlham Əliyevin çıxışından)***

# Qədim İpək Yolu Azərbaycan üçün daimi kapitaldır, daimi siyasi nüfuzdur, iqtisadi müstəqilliyin güclü amilidir

göndərilmə dövlətlərini dəyişərək genişləndiririk. Təkcə bir misal deyim. Türkiyənin Dərincə limanına və bizim müştərinin dediyinə görə, artıq Dərincə limanı vasitəsilə Avropa dövlətlərinə Qazax şirkəti satış həyata keçirəcək və bildiyimizə görə ilk partiya, yekun partiyası İspaniyaya göndəriləcək.

*Aparıcı*: Akif müəllim, bu gün əsas yük mübadiləsi Avropa İttifaqı ilə Çin arasında gedir. Məsələn, mən bir-iki statistikanı qeyd etmək istərdim ki, hazırda Avropa İttifaqı ilə Çin arasında 240 milyon tonluq yükdən ibarət və dəyəri 520 milyard avrodan çox ticarət dövriyyəsi var və həmin göstəricinin çox demirik, cəmi 5 faizi əgər Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınarsa, bu, milyonlarla ton yük deməkdir. Bu baxımdan Bakı-Tbilisi-Qarsın imkanlarını necə qiymətləndirmək olar? Akif müəllim, sizi dinləyək.

***AKİF MUSTAFAYEV:*** Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısının əhəmiyyətini qeyd etməzdən əvvəl istərdim deyim ki, əvvəllər də, yəni 1998-ci ildən bir 10 il, 15 il sonra da daşımalar var idi. Lakin o vaxtlar, açığını desək, Azərbaycanı Türkiyə ilə və Avropa ilə birləşdirən dəmir yolu bağlantısı yox idi və Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşması, sözsüz ki, hörmətli cənab Prezidentimiz İlham Əliyevin təşəbbüsü, səyi nəticəsində baş verdi.

Bu yol həm çox qısa, həm səmərəli, həm daha ucuz, təhlükəsiz, həm də kəsintisizdir. Yəni, vaqonlar əgər Çin ərazisinə vurulubsa, onlar düz Avropaya, Londona qədər heç bir aşırma olmadan gedib çata bilər və sözsüz ki, bu, belə deyək, dünyanı çox maraqlandırdı. Azərbaycanın Aktauda Xəzərin statusu ilə bağlı imzaladığı sənədlə əlaqədar tədbirdə İlham Əliyev hökmən nəqliyyat sektoruna, Şimal-Cənub dəhlizinə, Şərq-Qərb dəhlizinə, Bakı-Tbilisi-Qars bağlantısına toxunub, həmçinin 24 avqustda xanım Merkel Azərbaycana səfər edib, orada da yenə Bakı-Tbilisi-Qars dəmir yolu məsələsinə toxunulub. Baxın, harada Asiya, harada Almaniya. Ayın 1-də cənab prezident Soçidə Putinlə görüşür, yenə də həmin məsələyə toxunur, Azərbaycan-Bakı regionun tranzit, logistik nəqliyyat mərkəzinə çevrilmişdir. Bu, faktdır. HAB rolunu oynayır. Amma bu, o demək deyil ki, hər şey də bitib, daha bizim görəsi işlərimiz yoxdur. Görəsi işlərimiz indi daha da çoxdur. Yəni, biz bu səviyyəyə çatmışıq, bunu saxlamalıyıq, bunu qorumalıyıq və sözsüz, burada tarif məsələləri də var, bunlara yenidən baxılmalıdır və bununla əlaqədar Azərbaycan Dəmir Yolları, Xəzər Dəniz Gəmiçiliyi, bizim Bakı Dəniz Limanı xeyli işlər görürlər, yəni assosiasiya çərçivəsində razılaşdırılmış tariflərə baxırlar. Sözsüz ki, burada vahid gömrük sərhəd-keçidlərində mümkün qədər sadələşmələr getməlidir, rəqəmsal texnologiyaları tətbiq etmək lazımdır. Azərbaycan bundan sonrakı illərdə, doğrudan da, özünün cəlbediciliyini, lider olduğunu hər yerə göstərəcək və isbat edəcək.

*Aparıcı*: Ziyad müəllim, amma eyni zamanda bir məqama da toxunasınız. Akif müəllim çox önəmli məsələni qeyd etdi. Bəli, cənab Prezident istənilən ölkəyə səfər etdikdə və yaxud istənilən ölkənin nümayəndəsi, rəhbəri daha doğrusu, Azərbaycana gəldikdə, ilk növbədə Azərbaycanın həyata keçirdiyi nəqliyyat, beynəlxalq nəqliyyat kommunikasiya layihələrindən danışır. Bu, eyni zamanda onu deməyə əsas verir ki, Azərbaycanın reallaşdırdığı bu layihələr yalnız bizim üçün mühüm önəm kəsb etmir. Regional baxımdan və qlobal baxımdan çox mühüm faydalar ortaya qoyur.

***ZİYAD SƏMƏDZADƏ:*** Azərbaycan dövlətinin, cənab prezidentin apardığı siyasətin uğurlarını təmin edən ən başlıca şərtlərdən biri ondan ibarətdir ki, dövlət başçısı problemə sistemli yanaşır. Nəqliyyat böyük bir sahədir, onun çox müxtəlif qolları var. Uzun illər bizim nəqliyyat sahələri arasında koordinasiya, demək olar ki, çox zəif olub. Sərt sovet sistemi olub, ittifaq maraqları üstünlük təşkil edib. Amma bu gün Azərbaycanın apardığı iqtisadi siyasətdə nəqliyyatın kompleks inkişaf məsələsi ortaya çıxır. Nəqliyyatın o kompleks inkişafı məsələsi nədir? Biz Xəzər Dəniz Gəmiçiliyini inkişaf etdiririk.

Bakı Beynəlxalq Dəniz Ticarət limanını yaradırıq, dəmir yollarını inkişaf etdiririk, eyni zamanda, TRACECA proqramı çərçivəsində yeni, müasir avtomobil yolları salınır. Avtomobil yollarını da inkişaf etdiririk. Yəni, nəqliyyatın sistemli, dinamik, tarazlı inkişafı, bütövlükdə, nəqliyyat konsepsiyasının səmərəsini artırır.

Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi məsələsi meydana çıxanda, erməni lobbisi bütün dünyaya müraciət etmişdi ki, bu yol çəkilməsin. Beynəlxalq Valyuta Fondu da bildirdi ki, biz bu layihəni maliyyələşdirə bilmərik. Cənab prezidentin liderlik məharəti, prinsipiallığı, milli maraqları üstün tutması imkan verdi ki, Azərbaycan öz hesabına bu layihəni həyata keçirsin.

*Aparıcı*: Astaraya 500 milyon dollar kredit ayrılıb.

***ZİYAD SƏMƏDZADƏ:*** Kreditin bir hissəsinin ödənməsini Azərbaycan dövləti öz üzərinə götürdü. Nə üçün? Çünki nəqliyyatın hər hansı bir həlqəsində tarazlığın pozulması, bütövlükdə, ölkə iqtisadiyyatına mənfi təsir edir. Azərbaycan dövlətinin apardığı siyasətin ən müsbət cəhətlərindən biri ondan ibarətdir ki, Azərbaycanın nəqliyyat sistemi kompleks inkişaf edir və xaricdən gələn qonaqlar, xarici ölkələr də bunu bilirlər. Diqqət edin, görün, nə qədər beynəlxalq əhəmiyyətli yollar çəkilir, müasir hava limanları tikilir, müasir təyyarələr alınır. Xəzər Dəniz Gəmiçiliyi artıq bu gün dünyada tanınan ən mühüm strukturlardan biridir. Onun müasir gəmilərlə zənginləşməsi, Azərbaycanda Gəmiqayırma Zavodunun tikilməsi və bu Gəmiqayırma Zavoduna ildən-ilə sifarişlərin artması, gələcəkdə nəqliyyat dəhlizinin inkişafında onun məhsullarından istifadə edilməsi onu göstərir ki, Azərbaycan təkcə tranzit ölkə deyil, eyni zamanda, real sektoru dinamik inkişaf etdirən ölkədir. Azərbaycan bu gün "Bir kəmər, bir yol" layihəsinin fəal iştirakçısıdır. Bu layihəyə də Azərbaycanın dövlət başçısı İlham Əliyev xüsusi önəm verir. Yəni, bu gün biz nəqliyyata təkcə yüklərin və sərnişinlərin daşınması kimi deyil, yüksək gəlir və mənfəət verən bir sahə kimi baxırıq. Dünya Bankının nümayəndəsi Bakı Sammitindəki çıxışında bir neçə təklif irəli sürdü: maraqlı tərəflər səmərə götürsünlər, nəqliyyat xərcləri gəlirlərdən az olsun, yüklərin daşınması, istehlakçıya çatdırılması ilə bağlı məsələlər nəqliyyatın ahəngdarlığını, fasiləsizliyini tarazlamalıdır. Bu şərtləri təmin etmək üçün Azərbaycan dəmir yolunda, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində, Bakı Dəniz Ələt limanında, Bakı Hava Limanında texniki-iqtisadi göstəricilərin kommunal təhlili məsələlərinə diqqət artırılmalıdır. Daha bir məsələ barədə Bakı Sammitində Ermənistanın Baş naziri çıxış edir, o da həmin konsorsiumun, təşkilat komitəsinin üzvü olan ölkələrdən biridir. O bir neçə məsələ qaldırdı.Bu məsələlər nədən ibarət idi?

Naxçıvan vasitəsilə Xəzər dənizinə çıxmaq, Bakı-Gümrü yolunun bərpa edilməsi və s. Yəni, orada Darbinyanın qaldırdığı məsələnin heç biri öz həllini tapmayıb. Nə üçün? Azərbaycan dövləti birmənalı şəkildə bəyan edir ki, torpaqlar azad olunmalıdır, işğalçı dövlətlə biz əməkdaşlıq edə bilmərik. Hətta ulu öndər Heydər Əliyevə 2000-ci ildə Davosda sual verirlər ki, siz Ermənistanla qədim İpək yolunun bərpası ilə əlaqədar, eyni zamanda, Ermənistanla sülh yolu barədə nə deyə bilərsiniz? Heydər Əliyev çox təəccüblə baxıb deyir ki, bəlkə siz dostluq kəmərini deyirsiniz, sovet dövründə olan dostluq kəmərini? Biz həmişə qonşu dövlətlərlə sülh şəraitində yaşamaq istəyirik. Hətta misal çəkir ki, fransızlarla almanlar, Sovet İttifaqı ilə Almaniya bir-birilə mübarizə aparırdılar, amma indi onlar dostluq, əməkdaşlıq edirlər. Yəni, dostluq, sülh, əsl qonşuluq münasibətləri olarsa, Ermənistan da Azərbaycanın həyata keçirdiyi bu və ya digər layihələrdə iştirak edə bilər.

Hətta misal çəkir ki, fransızlarla almanlar, Sovet İttifaqı ilə Almaniya bir-biri ilə müharibə aparıblar, lakin indi Rusiya dostluq edir və s. Yəni, dostluq, sülh, əsl qonşuluq münasibətləri olarsa, Ermənistan bu və ya digər layihələrdə iştirak edər.

Yenə də qayıdıram əvvəlki fikrimə, sizin sualınıza cavab olaraq demək istəyirəm ki, bu, beynəlxalq əhəmiyyətli bir layihədir. Bu, artıq regional çərçivədən çıxıb, dünyanın 50-dən artıq ölkəsi artıq "Bir kəmər, bir yol" layihəsinə qoşulub.




***Vətənini, torpağını, millətini, ölkəsini sevən hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının bu hadisə ilə fəxr etməyə əsası vardır və bununla hər bir adam fəxr edə bilər. Çünki bu, bizim millətimizin, ölkəmizin, dövlətimizin adıdır.***

**Heydər ƏLİYEV (10 sentyabr 1998-ci il)**

***Aparıcı:*** Akif müəllim qeyd etdi ki, hətta 3 faiz düşsə belə, bu, kifayət qədər böyük rəqəm edir.

***AKİF MUSTAFAYEV:*** 200 min konteyner edir.

***ZİYAD SƏMƏDZADƏ:*** Biz daşımada ən azı 1 milyon konteynerə çıxacağıq, amma 225 milyon tondan 3 faiz bizim üçün azdır.

Ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələr, nəqliyyat kompleksinə sistemli yanaşma məhz onu deməyə əsas verir ki, nəzərdə tutulmuş hədəflər mütləq və mütləq həyata keçiriləcəkdir.

Ona görə mən belə hesab edirəm ki, qədim İpək yolunun bərpası, uzun illər Azərbaycanın mədəniyyətinə, iqtisadiyyatına, iqtisadi gücünün artmasına kömək edəcək, Azərbaycanın uğurları ilə vətənimizin hər bir oğlu, hər bir insanı fəxr edə bilər.

***AKİF MUSTAFAYEV:*** TRACECA tədbirlərinin birinə cənab prezident təbrik məktubu göndərmişdi. O təbrik məktubundan bir sitatı deyirəm. O, belə demişdir: "Qədim İpək yolunun bərpası keçmişdə başlayır, ancaq gələcəyə aparan yoldur və bu yol bütün region xalqlarına və dünya xalqlarına firavanlıq, xoşbəxtlik bəxş edəcək". Yəni, bu, doğrudan da, qızıl hərflərlə yazılasıdır. Keçmişdən başlayan və gələcəyə aparan yoldur. Mən elə bilirəm ki, bunu biz hamımız yadımızda saxlamalıyıq və özümüzü gələcəyə tənzimləməliyik.

***Aparıcı:*** Akif müəllim çox önəmli məqamlara toxundu. Bəli, cənab Prezident İlham Əliyevin liderliyilə Azərbaycan bir çox qlobal layihələrə imza atdı. Amma bu layihələr, ilk növbədə məhz ölkəmizin, vətəndaşların istifadəsi, vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi üçündür və Akif müəllim bildirdi ki, bu layihələrin tam gücü ilə işə düşməsi üçün vahid tarif, gömrük siyasəti olmalıdır. Ən əsası, İqbal müəllim, biz bilirik ki, Bakı-Tbilisi-Qars dəmir yolunun özünün şaxələndirilməsi istiqamətində bu gün sistemli addımlar atılır, konkret proqramlar var. Bax, bu istiqamətdə sizin fikirlərinizi eşitmək istərdik. Real nəticə necədir, hansı istiqamətlərdə bu gün iş gedir?

İqbal Hüseynov: Son üç ildə Azərbaycanın Dəmir Yolunda çox böyük işlər görülübdür. Bu görülən işlər hələ davam etməkdədir. Bu gün yüklərin həcmini artırmaq, yükləri daha tez çatdırmaq üçün biz artıq vaqon parkımızı, yük vaqonları parkını, konteynerlər parkımızı, lokomativlərimizi yeniləməliyik, yenilərini almalıyıq. Eyni zamanda, siz, yəqin, fikir verirsiniz, Dəmir Yolu olaraq biz, bir çox sahələrdə əməkdaşlıq edirik. Artıq biz Avropa Dəmir yolları ilə sıx əməkdaşlığa başlamışıq. Cənab prezidentin keçən il Polşaya səfəri zamanı orada imzalanan mühüm sənədlərdən biri də Polşa Dövlət Dəmir yolları ilə Azərbaycan Dəmir yolları arasında bağlanmış strateji əməkdaşlıq bağlantısı idi. Bu yaxınlarda İtaliya prezidentinin Bakıya səfəri zamanı yenə də imzalanmış sənədlərdən biri İtaliya Dəmir Yolları və Azərbaycan Dəmir Yolları arasında olan əməkdaşlıq sənədi idi və o sənədlərdən irəli gələn tələblərə uyğun olaraq biz bu gün Polşanın Slavkov deyilən stansiyasından Trans-Xəzər, həmçinin Cənub-Qərb marşrutu üzrə əməkdaşlıq edirik, eyni zamanda, test vaqonunu da daşımışıq, yüklərin daşınma müddəti, onların qorunması uğurla nəticələnibdir.

İtaliya Dəmir Yollarına gəldikdə, onlarla yeni, maraqlı proyekt üzərində işləyirik - Adriatik dənizində Triest limanının istifadəsi ilə Triestdən Avropa yüklərini Türkiyənin Mersin limanına gətirmək və oradan Bakı-Tbilisi-Qars xətti ilə ya Azərbaycana, ya Asiya dövlətlərinə ötürmək.

Bildiyiniz kimi, artıq İranın ərazisində biz terminalı yaratmışıq, yükləri həm Rusiya, həm İran, həm Azərbaycan, həm də Belarus dövləti olaraq, Şimal-Cənubun bir qolu kimi Avropaya Belarus üzərindən aşırmağa başlamışıq. İkincisi, İran-Azərbaycan-Gürcüstan-Ukrayna-Polşa birlikdə Cənub-Qərb marşrutu yaradıbdır və onun da koordinasiya komitəsi Azərbaycandadır, Azərbaycan Dəmir Yolları tərəfindən həyata keçirilir. Orada da biz artıq müəyyən yüklərin daşınmasını həyata keçiririk.

Bu gün Astara terminalından biz İranın ixrac yüklərini Türkiyəyə, Gürcüstana daşıyırıq. Əldə olunmuş son razılığa görə, oktyabrın birinci yarısında Hindistanda böyük bir konfransın keçirilməsi nəzərdə tutulubdur. Əsasən, onunla hazırda Rusiya Dəmir Yolları məşğuldur. Yəqin ki, bu ayın axırına kimi vaxtı və yeri bilinəcəkdir.

***Aparıcı:*** Yeri gəlmişkən, Soçi görüşündə Putin bir məsələni də qeyd etdi ki, Rusiya tərəfi də Şimal-Cənub nəqliyyat dəhlizinin tez bir zamanda reallaşması istiqamətində kompleks addımlar atacaq, yəni sistemli iş gedir, konkret proqram əsasında addımlar atılır və onun da real nəticələri, təbii ki, olacaq.

***ZİYAD SƏMƏDZADƏ:*** Heydər Əliyev deyir: "Böyük İpək yolu keçmişdə başlansa da, gələcəyə doğru gedən yoldur". Mən inanıram ki, əgər biz əməkdaşlıq edə-edə, bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, xalqlarımızı firavanlığa və tərəqqiyə çıxaracağıq".

Azərbaycan iqtisadiyyatı bu gün özünün elə bir inkişaf mərhələsinə çatıb ki, artıq real proqnozlar vermək olar. Qlobal sarsıntılar var, dünya bazarında təbii resursların qiymətləri artır və azalır. Amma Azərbaycan bu mərhələni çox böyük uğurla keçdi. Respublikamızın iqtisadi inkişafında nəqliyyat kompleksinin rolu artır. Hansısa mərhələdə iqtisadi artım bu və ya digər dərəcədə azala bilər. Qədim İpək yolunun bərpası bu bazada özünəməxsus rola malikdir. Amma əsas məsələ ondan ibarətdir ki, gələcək yüksəliş üçün güclü baza var.

Tranzit marşrutları bir günə seçilmir. İllər boyu, onilliklər boyu müzakirələr, hesablamalar aparılır ki, mən bu yüklərimi qısa zaman kəsiyində Avropaya daşıya bilərəmmi, Avropadan ala bilərəmmi? Avropa İttifaqı ilə nəqliyyat dəhlizi ilə əlaqədar olaraq əməkdaşlığın bir neçə şərti var. Brüssel bəyannaməsində, Bakı sammitində qəbul edilmiş sənədlərdə və əlavə sazişlərdə də göstərilib ki, Avropadan yüklənən yüklər heç bir maneə olmadan sonuncu məntəqəyə çatsın. Amma vaxt var idi ki, yükləri hər bir ölkədə açırdılar, baxırdılar, sənədlər tərtib olunurdu və s. Bütün bunlar da vaxt itkisi demək idi. Bu kimi nöqsanlar tam aradan qaldırılmalıdır.

XXI əsr rəqabət mübarizəsidir. Əgər biz tarifləri yüksək etsək, sərhəddə maneələr olsa, yüklər daşınmayacaq, gömrük problemləri olsa, problemlər artacaq. Cənab prezidentin də tapşırığı var ki, yüklər maneəsiz, vaxt yubatmadan keçməlidir. Ona görə bu qədim İpək yolunun bərpası layihəsi müvafiq strukturların qarşısında çox böyük məsuliyyət qoyur. Biz menecment qaydalarını təkmilləşdirməliyik. Ələt İqtisadi Zonası yaradılır. Onun yaranması adi bir məsələ deyildi, dünyanın ən vacib, mühüm şirkətlərindən biri idarəmizə cəlb olunub. Deməli, biz orada yeni, müasir, dünyəvi oyun qaydalarını tətbiq etməliyik, investisiya mühitini yaxşılaşdırmalıyıq, xaricdən gələn investorlar üçün əlverişli şərait yaratmalıyıq. Bütün bunlar sistemli şəkildə aparılır, yüksək nəticələr əldə edilir. Bu yolun bərpası Azərbaycana çox-çox böyük dividendlər gətirəcək. Yenə də deyirəm, qədim İpək yolu Azərbaycan xalqı və dövləti, bütövlükdə həminregionda yerləşən ölkələr üçün daimi kapital, daimi sülhün təmin edilməsi deməkdir.

Strateji əhəmiyyət kəsb edəndaimi gəlir mənbəyidir və müstəqilliyimizin qorunmasında Xəzərin statusu ilə bağlı konvensiya da tarixi hadisədir. Uzun illər bu məsələ həll olunmurdu. 2000-ci ildə Bakıda səfərdə olan Rusiyanin xarici işlər nazirinin müavini Pastuxov müraciət edərək deyir ki, Xəzərin statusu barədə ümumi razılığa gəlmənin açarı sizdədir.

Bu məsələdə də ulu öndərdən sonra cənab Prezident İlham Əliyevin apardığı müdrik siyasət, sağlam qonşuluq münasibətlərini qurmaq istiqamətində onun gördüyü işlər Xəzərin statusu ilə bağlı 5 dövlət arasında konsensusu təmin etdi. Yəni, düşünülmüş, milli maraqlara cavab verən iqtisadi siyasət Azərbaycanın nəqliyyat sektoru vasitəsilə həyata keçirilən və keçiriləcək layihələrin səmərəsini qat-qat artıracaq.

# Qida Təhlükəsizliyi Agentliyi balıq və balıq məhsulları ilə bağlı xəbərdarlıq edir



Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərində qida təhlükəsizliyi üzrə mövcud normativ hüquqi aktların, sanitar-gigiyena tələblərinin təmin edilməsi istiqamətində tədbirlərini davam etdirir.

AQTA-nın informasiya təminatı və innovativ həllər şöbəsindən bildirilib ki, son zamanlar Qida Təhlükəsizliyi Agentliyinə Bakı ətrafı qəsəbələrdə və ölkəmizin müxtəlif regionlarında heç bir normativ texniki sənədlərə və sanitar-gigiyena tələblərinə cavab verməyən, həyatyanı sahələrdə kustar üsulla balıq məhsullarının hazırlanması, xüsusi ilə balıqların hisə verilməsi kimi qanunsuz fəaliyyət göstərən istehsalat sahələri ilə bağlı məlumatlar daxil olur.

Qida Təhlükəsizliyi Agentliyi qanunsuz fəaliyyətlə məşğul olan şəxslərə xəbərdarlıq edir ki, bu şəraitdə hazırlanan məhsullar insan sağlamlığında ciddi fəsadlar törədə, hətta əhali arasında ölümlə nəticələnə biləcək hallara səbəb ola bilər.

Agentlik bəyan edir ki, bu cür qanunazidd fəaliyyətlərin qarşısının alınması üçün qanunvericiliyin tələbləri çərçivəsində ən sərt tədbirlər həyata keçiriləcək.

Eyni zamanda, istehlakçılara balıq və balıq məhsullarını seçərkən daha diqqətli olmaları, məhsulun keyfiyyət göstəricilərini əks etdirən sənədlə tanış olmaları və normativ qaydalara uyğun şəraitdə saxlanılan məhsulun satışına əmin olduqdan sonra istifadə etmələri tövsiyə olunur.

## Bu il Azərbaycana 193 ölkədən 1,9 milyon əcnəbi gəlib

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-avqust ayları ərzində Azərbaycana dünyanın 193 ölkəsindən 1 milyon 976,9 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, gələnlərin 31,6 faizi Rusiya Federasiyası, 19,5 faizi Gürcüstan, 9,8 faizi Türkiyə, 9,4 faizi İran, 3,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,6 faizi İraq, 2 faizi Ukrayna, 21,5 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 66,4 faizini kişilər, 33,6 faizini isə qadınlar təşkil edib. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 9,4 faizi yanvar, 8,4 faizi fevral, 14 faizi mart, 11 faizi aprel, 10,5 faizi may, 13,6 faizi iyun, 16,7 faizi iyul, 16,4 faizi isə avqust ayında ölkəyə gəlib.

Cari ilin yanvar-avqust aylarında Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib.

Yanvar-avqust aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 8 faiz artaraq 77 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 5,5 faiz artaraq 734 min nəfər olub. Ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 56,1 faizi dəmir yolu və avtomobil, 42,9 faizi hava, 1 faizi isə su nəqliyyatından istifadə edib.

Səkkiz ayda xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı 3 milyon 89,8 min nəfər olub

Cari ilin yanvar-avqust aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,7 faiz artaraq 3 milyon 89,8 min nəfər olub. Ölkə vətəndaşlarının 30,9 faizi Gürcüstana, 29,7 faizi İrana, 19,6 faizi Rusiya Federasiyasına, 13,4 faizi Türkiyəyə, 1,6 faizi Ukraynaya, 1,0 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,8 faizi isə digər ölkələrə səfər edib. Səfər edənlərin 65,7 faizi kişilər, 34,3 faizi isə qadınlar olub.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 43,4 faiz, Gürcüstana gedənlərin sayı 2,3 faiz artıb, Türkiyəyə gedənlərin sayı 2,8 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 1,9 faiz azalıb.

Yanvar-avqust aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 80,1 faizi dəmir yolu və avtomobil, 19,1 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.




# Bakcell növbəti beynəlxalq ekoloji aksiyaya qoşuldu



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti ölkənin bir sıra nüfuzlu şirkətləri, dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə bir araya gələrək, bütün dünyada qeyd olunan Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində sentyabrın 15-də Bilgəh çimərliyində genişmiqyaslı təmizlik aksiyasına qoşulub.

Artıq 23 ildir ki, dünyanın bir çox ölkəsi hər il sentyabr ayının 15-ini Beynəlxalq Sahilyanı Təmizlik Günü kimi qeyd edir. Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönəlmiş ən irimiqyaslı könüllü hərəkatıdır. Bu məqsədlə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyirlər.

Azərbaycanın artıq 9 ildir ki, iştirak etdiyi bu beynəlxalq ekoloji aksiyanın təşkilatçıları qismində ənənəvi olaraq “Coca-Cola”, "Bakcell", “PAŞA Bank” şirkətləri və “ASAN Könüllülük Məktəbi”nin “Yaşıl ASAN” təşəbbüsü çıxış ediblər, aksiyanın partnyorları sırasında isə “ASAN Radio”, “Xəzər TV”, “AzEkol”, AFFA, “BakuExpo 2025”, “Alliance Assist Group”, “Toyota” Bakı Mərkəzi, “Entreé” kafelər şəbəkəsi və Azərbaycan Velosiped İdmanı Federasiyası yer alıblar.

15 sentyabr tarixində #Xəzəriqoruyaq şüarı altında Bilgəh çimərliyində keçirilmiş aksiyaya maksimum sayda iştirakçı cəlb olunub. Belə ki, 600-dən artıq insan sahilyanı ərazini 5 tona yaxın tullantıdan təmizləyib. Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik ləvazimatları ilə təmin olunublar. Hər il çimərlik mövsümünün sonunda gənclərin, Bakcell və digər şirkətlərin əməkdaşlarının, onların ailə üzvlərinin iştirakı ilə keçirilən sahilyanı təmizlik aksiyası ölkədə ekoloji durumun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ edir.

Qeyd edək ki, Azərbaycanda son 9 il ərzində keçirilən analoji birgünlük aksiya çərçivəsində Xəzər dənizinin çimərliklərinin 40 hektara yaxın ərazisi təxminən 32 ton məişət tullantısından təmizlənib. Təmizlənən ərazilərdən toplanan tullantılar qeydə alınaraq məlumatlar “OceanConcervancy” beynəlxalq təşkilatına göndərilir. Həmin məlumatlar isə öz növbəsində dünya su hövzələrinin təmizlənməsi haqqında ölkələr üzrə beynəlxalq hesabatlarda əks olunur.

Korporativ sosial məsuliyyətli şirkət olan Bakcell bu hərəkata qoşulan ilk mobil operator kimi ölkədə ekologiya sahəsində maarifləndirmə fəaliyyətinin həyata keçirilməsi, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına öz töhfəsini verir.

# “Azercell” tələbələrə aylıq təqaüd verəcək

İqtisadi baxımdan getdikcə güclənən, bazar iqtisadi münasibətlərinin daha təkmil şəkildə formalaşmasına önəm verən Azərbaycan üçün təhsilin inkişafı, peşəkar, savadlı kadrların yetişməsi olduqca əhəmiyyətlidir. Bunu nəzərə alan “Azercell Telekom” MMC öz sahəsində peşəkar olmaq, gələcək karyerasında uğur qazanmaq istəyən tələbələrə növbəti imkanı yaradır. Daima Azərbaycanın akademik potensialının yüksəlməsinə yönəlmiş layihələri dəstəkləyən şirkət bu il də Tələbə Təqaüdü Proqramını elan edir. 2018-ci il sentyabrın 18-dən etibarən “Azercell” öz bacarığına və savadına güvənən bütün tələbələri bu proqramdan yararlanmağa çağırır. Tələbələr oktyabrın 18-dək şirkətin rəsmi veb-səhifəsinə (www.azercell.jobs) daxil olub qeydiyyatdan keçməlidirlər. Ərizələr yalnız onlayn şəkildə qəbul edilir. Qeyd edək ki, proqramın bütün seçim mərhələlərini uğurla adlayan tələbələr cari təhsil müddətinin sonuna qədər şirkət tərəfindən müəyyənləşdirilmiş təqaüd alacaq. Bundan əlavə, bu proqram çərçivəsində tələbələr telekommunikasiya sahəsi haqqında biliklərini artırmaq, şirkətin korporativ tədbirlərində və sosial fəaliyyətində iştirak etmək, müxtəlif təlimlərə qatılmaq və şirkətdə təcrübə keçmək imkanını əldə edə biləcəklər. Qeyd edək ki, tələbələr tərəfindən böyük maraqla qarşılanan bu proqram 2008-ci ildən etibarən hər tədris ilində təqdim edilir. Bu günədək Azərbaycanın müxtəlif universitetlərində təhsil alan 150-dən çox tələbə şirkətin fəxri təqaüdçüsü adına layiq görülüb.




# ELAN

“Qafqaz Lizinq”Açıq Səhmdar Cəmiyyəti (VÖEN: 1501116941 , ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 168B) (yenidən təşkilinin çevrilmə formasında) təşkilati-hüquqi formasını dəyişdirərək, “Qafqaz Lizinq” Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrildiyini elan edir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500